Yeddinci çağırış

# AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ İCLASLARININ

# PROTOKOLLARI VƏ STENOQRAMLARI

Beşinci sessiya
Payız

53-cü cild

16 dekabr 2025-ci il

Milli Məclisin nəşri
Bakı – 2025

Milli Məclis Aparatının
Redaksiya və nəşr işləri şöbəsində
hazırlanmışdır

# YEDDİNCİ ÇAĞIRIŞ
# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİNİN
# V SESSİYASI İCLASININ

# PROTOKOLU № 54

*Milli Məclisin iclas salonu.*
*16 dekabr 2025-ci il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 108 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
| İştirak edir | 101 |
| Yetərsay | 83 |

**İclasa dəvət olunmuşlar:**

**Rəşad Mustafayev**, Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini.

**Fuad Heydərov**, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Əmək siyasəti şöbəsinin müdiri.

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. "Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Türkiyə Respublikasının Milli Müdafiə Nazirliyi arasında qarşılıqlı hərbi təhlükəsizliyin möhkəmləndirilməsinə dair

Anlaşma Memorandumu"nun təsdiq edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi.

2. "Kosmonavtların xilas edilməsi, kosmonavtların geri qaytarılması və kosmik fəzaya çıxarılmış obyektlərin geri qaytarılması haqqında Saziş"ə qoşulmaq barədə Azərbaycan Respublikası qanununun layihəsi.

3. "Azərbaycan Respublikası Hökuməti ilə Ruanda Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

4. Nəqliyyat-ekspedisiya fəaliyyəti haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

5. Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində, "Nəqliyyat haqqında" və "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

6. "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında", "Ətraf mühitin mühafizəsi haqqında", "Dövlət rüsumu haqqında", "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" və "Standartlaşdırma haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

7. "Dövlət rüsumu haqqında" və "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

8. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

9. Azərbaycan Respublikasının Vergi Məcəlləsində,

“Sosial sığorta haqqında” və “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

10. Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, “Həmkarlar ittifaqları haqqında”, “Sosial sığorta haqqında”, “Bələdiyyələrin statusu haqqında”, “Valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında”, “Azərbaycan Respublikasında vərəmlə mübarizə haqqında”, “Narkoloji xidmət və nəzarət haqqında”, “Gənclər siyasəti haqqında”, “Yaşayış minimumu haqqında”, “Ünvanlı dövlət sosial yardımı haqqında”, “Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında”, “İşsizlikdən sığorta haqqında”, “Əlilliyi olan şəxslərin hüquqları haqqında”, “Məşğulluq haqqında” və “Hesablama Palatası haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Razi Nurullayev, Aqil Abbasov, Bəhruz Məhərrəmov, Elman Nəsirov, Azər Badamov, Şahin İsmayılov, Əli Məsimli, Məlahət İbrahimqızı, Tural Gəncəliyev, Asif Əsgərov

| | |
|---|---|
| **Təklif:** Gündəlik qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 11.02 dəq.) |
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

**1. "Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Türkiyə Respublikasının Milli Müdafiə Nazirliyi arasında qarşılıqlı hərbi təhlükəsizliyin möhkəmləndirilməsinə dair Anlaşma Memorandumu"nun təsdiq edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Arzu Nağıyev, Səməd Seyidov, Hikmət Məmmədov, Bəhruz Məhərrəmov, Siyavuş Novruzov, Sahib Alıyev

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 11.49 dəq.) |
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

**2. "Kosmonavtların xilas edilməsi, kosmonavtların geri qaytarılması və kosmik fəzaya çıxarılmış obyektlərin geri qaytarılması haqqında Saziş"ə qoşulmaq barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Zaur Şükürov, Elman Nəsirov, Müşfiq Məmmədli, Ülviyyə Həmzəyeva

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.59 dəq.) |
|---|---:|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**3. "Azərbaycan Respublikası Hökuməti ilə Ruanda Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Zaur Şükürov, Səməd Seyidov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.06 dəq.) |
|---|---:|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

**4. Nəqliyyat-ekspedisiya fəaliyyəti haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 12.09 dəq.) |
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

**5. Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində, "Nəqliyyat haqqında" və "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 12.09 dəq.) |
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

**6. "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında", "Ətraf mühitin mühafizəsi haqqında", "Dövlət rüsumu haqqında", "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" və "Standartlaşdırma haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov, Naqif Həmzəyev

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.11 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**7. "Dövlət rüsumu haqqında" və "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov, Razi Nurullayev, Vasif Qafarov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.20 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**8. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov

| | |
|---|---|
| **Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 12.23 dəq.) |
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

**9. Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Sosial sığorta haqqında" və "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli, Azər Əmiraslanov, Soltan Məmmədov

| | |
|---|---|
| **Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 12.28 dəq.) |
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

**10. Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, "Həmkarlar ittifaqları haqqında", "Sosial sığorta haqqında", "Bələdiyyələrin statusu haqqında", "Valideyn himayəsindən məhrum olmuş uşaqların sosial**

**müdafiəsi haqqında", "Azərbaycan Respublikasında vərəmlə mübarizə haqqında", "Narkoloji xidmət və nəzarət haqqında", "Gənclər siyasəti haqqında", "Yaşayış minimumu haqqında", "Ünvanlı dövlət sosial yardımı haqqında", "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında", "İşsizlikdən sığorta haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında", "Məşğulluq haqqında" və "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Soltan Məmmədov, Əli Hüseynli, Azər Əmiraslanov, Siyavuş Novruzov, Hicran Hüseynova, Rəşad Mahmudov, Şahin İsmayılov, Qüdrət Həsənquliyev, Elçin Mirzəbəyli, Nigar Məmmədova, Fatma Yıldırım

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.02 dəq.) |
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*16 dekabr 2025-ci il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri*
***Sahibə Qafarova** sədrlik edir*

**Sədrlik edən.** Hörmətli deputatlar, hörmətli qonaqlar, hörmətli media nümayəndələri, hamınızı xoş gördük.

Hörmətli deputatlar, xahiş edirəm, qeydiyyatdan keçin. Buyurun.

| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
|---|---|
| İştirak edir | 101 |
| Yetərsay | 83 |

İclasa başlaya bilərik.

Hörmətli deputatlar, xahiş edirəm, gündəliyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.02 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

İştirak edir 105
Nəticə: Qəbul edildi

Gündəlik qəbul edildi.

Hörmətli deputatlar, bizim 30 dəqiqəmiz var. Gündəmdə, ya da gündəlikdə olan məsələlərlə bağlı kim çıxış etmək istəyirsə, buyursun, yazılsın. 10 nəfər danışa biləcək. Buyurun. Fərid müəllim, deyin, 10 nəfərin siyahısı qalsın.

Razi Nurullayev. Buyurun.

**Razi Nurullayev**. Hörmətli xanım sədr, hörmətli deputatlar, media nümayəndələri. Mən ilk öncə cənab Prezident tərəfindən 20 min məhbusun azad edilməsi ilə bağlı təşəbbüsü dəstəklədiyimi bildirirəm və bunu alqışlayıram. Doğrudan da, 20 min insan sevinəcək, 20 min ailə şadyanalıq edəcək. Buna görə mən cənab Prezidentə təşəkkürümü bildirmək istəyirəm.

Xanım sədr, icazənizlə, bir sosial məsələyə münasibətimi bildirmək istəyirəm. Azərbaycanda toy mədəniyyəti xalqımızın ən gözəl adətlərindən biridir. Lakin etiraf etməliyik ki, bu gün toylarımızda israfçılıq həddini aşmış vəziyyətdədir. Şadlıq evlərində süfrələrdə artıq qida tullantıları, sonsuz menyu çeşidləri, dekorasiya və şou xərcləri əndazəni aşır. Tonlarla kabab zibilə atılır. Amma ət ala bilməyən minlərcə ailə var. Bu, nə dini baxımdan, nə milli ənənə baxımdan, nə də iqtisadi məntiqlə izah oluna bilməz.

Bizim toylarımız sevinc məclisi olmaqdan çıxıb, sanki sosial yarışa çevrilib. İsrafçılıqla mübarizə təkcə maliyyə məsələsi deyil, həm də sosial məsuliyyətdir.

Digər ciddi məsələ isə toylarımızda musiqinin səsidir. Şadlıq evlərinin əksəriyyəti səsudan akustik materiallarla

təchiz olunmayıb. Nəticədə valideynlər, yaşlı insanlar, hətta uşaqlar saatlarla yüksək səsin təsiri altında qalırlar. Musiqi xadimləri də məcbur olub səsi artırır, çünki zalın akustikası zəifdir. Bu isə qulaq tutulmasına, baş ağrılarına, uzunmüddətli eşitmə problemlərinə səbəb olur. Xalqın ən sevincli günü sağlamlıq riski daşıyan mühitə çevrilir. Toy sahibi musiqi əvəzinə, sadəcə, səs-küy eşidir. Musiqi səsi sevinc yaşatmalıdır, insanların qulağını sıradan çıxarmamalıdır.

Dünyanın bir çox ölkələrində, Türkiyə, Avropa, Yaponiya və digər ölkələrdə restoranlar üçün xüsusi akustik standartlar var. Musiqinin səs gücü adətən 85-90 desibel həddini keçə bilməz. Bu hədd insan qulağı üçün təhlükəsiz hesab edilir. Zalın divarları səsudan panellərlə, tavan xüsusi akustik örtüklə təmin olunur. Bizdə isə bir çox şadlıq evində bu tələblər yoxdur. Nəticədə musiqinin səsi 110 desibel həddinə qədər yüksəlir ki, bu da sağlamlıq üçün çox təhlükəlidir. Təklif edirəm ki, şadlıq evlərinin lisenziyalaşdırılmasında və yaxud icazənin verilməsində akustik standartlar məcburi olsun, səs gücü üçün yuxarı limit tətbiq edilsin, akustik panellər və səs izolyasiyası dövlət standartının bir hissəsinə çevrilsin. Bununla həm sağlamlıq qorunar, həm musiqi daha keyfiyyətli səslənər, həm də toylarımız mədəniyyət və rahatlıq baxımından dünya səviyyəsinə çatmış olar.

Hörmətli həmkarlar, bizim toy mədəniyyətimiz gözəldir, amma onu daha sağlam, daha səmərəli və daha mədəni etmək bizim borcumuzdur. İsrafçılıq azaldılmalı, musiqinin səsi normaya salınmalı, şadlıq evləri beynəlxalq standartlara uyğunlaşdırılmalıdır.

Təşəkkür edirəm, xanım sədr.

**Sədrlik edən.** Çox sağ olun.

Aqil Abbas. Aqil müəllim, buyurun.

**Aqil Abbasov**. Təşəkkür edirəm, möhtərəm sədr. Mən də Razi müəllimə qoşuluram. Toy məsələsində deyil, möhtərəm Prezidentin verdiyi amnistiya ilə bağlı. Həqiqətən, insanlar – qadınlar, balalar, analar, bacılar, görün, nə qədər insan sevinəcək. Bu, çox mühüm bir aktdır. Millətin də bu gün yeni il qabağı sevincidir. Çox arzulayıram, bu, jurnalistlərə də şamil olunsun. Bir çox jurnalistlər həbsdədirlər, onlara da şamil olunsun. Düzdür, günahları, cinayətləri var. Amma müəyyən cinayətləri bağışlamaq olar.

Qaldı toy məsələsinə, Razi müəllim, yas və toy haqqında nə qədər fərman çıxarsaq da, – yas indi birtəhər düzəlib, – sərəncam çıxarsaq da, burada qərar qəbul etsək də, toy elə həmin toy olacaq. İstəyirsən, özümüzü öldürək, istəyirsən qadağan edək. Heç bir şeyə qadağa qoymaq mümkün deyil, Razi müəllim. İnsandır, toy edir. Mən də istəmərəm, toylarda o səs-küy olsun. Ona görə də toyda musiqi çalınanda çıxıb foyedə otururam, amma qarşısını almaq mümkün deyil.

Mən bir daha həbsdən çıxan dustaqları təbrik edirəm. İndi çıxacaqlar, Allah xoşbəxt etsin, cinayət törətməsinlər və bir də ora qayıtmasınlar. Möhtərəm Prezidentimizə eşq olsun, ona da uzun ömür arzulayıram.

Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Razi müəllimin dediyində, bəli, həqiqət var. Toy mədəniyyəti olmalıdır. Ona görə də insanları toy mədəniyyəti istiqamətində tərbiyə etmək, maarifləndirmək lazımdır.

Bəhruz Məhərrəmov. Buyurun.

**Bəhruz Məhərrəmov**. Təşəkkür edirəm. Hörmətli sədr, əziz həmkarlar. Azərbaycan Xalq Cəbhəsi Partiyasının

bəzi funksionerlərinin barəsində başlanmış cinayət təqibi ilə bağlı ictimaiyyəti çaşdırmağa yönəlik cəhdlərə şahidlik edirik. Elə ab-hava yaradılır ki, sanki bütün dünyanın diqqəti Azərbaycana yönəlib və bütün dünya mediası sanki bu prosesi manşetində saxlayır.

Birincisi, sosial mediada tirajlanan bu kimi xəbərlər saxtadır və heç bir reallığa söykənmir. Hansı isə marionet ünsürün həbsi heç bir formada geosiyasi mahiyyət kəsb etmir, əksinə, cinayətkarlıqla mübarizə ancaq alqışlana bilər.

İkincisi, dünyada özünə hörmət edən hər kəs bilir ki, indiki halda bu həbsləri pisləmək açıq formada Rusiyanın kəşfiyyat şəbəkəsinin müdafiəsinə qalxmaq deməkdir. Bu mənada yaradılan süni ajiotaj, əslində, AXCP-nin özünü ifşasıdır.

Mən üzümü sıravi cəbhəçilərə tuturam. Azərbaycanın ərazi bütövlüyünü tanımayan, daim işğala, təcavüzə dəstək vermiş, bu gün isə sülhü pozmağa çalışan təsisatların və media orqanlarının Əli Kərimlinin müdafiəsinə qalxması sizə bir şey demirmi? Sizdə bir sual yaratmırmı ki, bu dövlətə düşmən kəsilən dairələr Əli Kərimlini niyə müdafiə edir?

Yaxud 30 il ərzində bizdən işğalla barışmağı tələb edən, indi isə bizi təcavüzkarlıqda günahlandıran bir media resursu, yaxud təsisat Azərbaycan vətəndaşının rifahında, hüquqlarının müdafiəsində nə qədər maraqlı ola bilər?

Eyni zamanda, mən üzümü müsavatçılara tutmaq istəyirəm, 25 ildir ən kritik məqamlarda xəyanət edib sizə divan tutan Əli Kərimov üçün 3 gündən bir divan toplayırsız, məqsədiniz nədir? Nədir sizin demokratiya ölçünüz? Əli Kərimovun xəyanətkar rakursu, yaxud çox

hörmətli Fazil Mustafanın təbirincə adlandırsaq, siyasi dələduz Cəmil Həsənlinin qalın ənsəsi və mənəvi deqradasiyası necə demokratiya barometri ola bilər? Çox təəccüblüdür, bunlarda bu düşüncə ilə cümhuriyyət ənənələrinə iddia hansı özgüvəndən qaynaqlanır?

Yeni "Siyasi partiyalar haqqında" Qanun siyasi sağlamlaşma üçün bir şans idi. Maraqlıdır, heç bir dəstəyi və bazisi olmayan bu natamam təfəkkürlü siyasi qruplaşmaları hansı parametrlərə əsasən təkrar qeydiyyata aldılar? Hesab edirəm ki, Azərbaycanın hüquq mühafizə orqanları partiyaların qeydiyyat prosedurunun sağlam əsaslarla aparılıb-aparılmadığını bir daha araşdırmalıdır. Hansı isə konfiqurasiya xatirinə siyasi sistemi bu cür kirləndirmək olmaz.

O ki qaldı süni ajiotaja, bu gün bizim üçün həbsdə nə jurnalist var, nə də siyasətçi, yalnız Azərbaycanda dövlət hakimiyyəti əleyhinə əməllərdə təqsirləndirilən, vətənin daşı deyil, könüllü surətdə başqa dövlətlərin ayağının tozu olmağı seçmiş vətəndaşlar var. Quyruğu qapı arasında qalanda qanunun aliliyindən danışanlar isə unutmamalıdırlar ki, qalib, müstəqil Azərbaycanda siyasi mənsubiyyətindən asılı olmayaraq hər kəs qanun qarşısında bərabərdir.

Son amnistiya təşəbbüsü də göstərir ki, Azərbaycan dövləti, Azərbaycan Prezidenti öz vətəndaşına, o cümlədən yolunu azmış vətəndaşlara da sahib çıxmağı bacarır və bu mənada kənar müdaxilələrə və cəhdlərə heç bir ehtiyac yoxdur.

Çox sağ olun.

**Sədrlik edən.** Siz də çox sağ olun.

Elman Nəsirov. Buyurun.

**Elman Nəsirov.** Xanım sədr, hörmətli həmkarlar, hör-

mətli media nümayəndələri. 8 avqust tarixində Vaşinqtonda imzalanmış tarixi sülh razılaşmaları böyük ümidlər yaradıb ki, nəhayət, bölgəmizə uzunmüddətli və dayanıqlı sülh gəlsin. Hətta belə inam var ki, 2026-cı il tarixə sülh ili kimi düşə bilər.

Amma son zamanlar müşayiət olunan iki tendensiya müəyyən narahatlıq doğurur və nə qədər paradoksal səslənsə də, həmin təhlükəli, qorxulu tendensiyaların daşıyıcıları, əslində, bir-birinə düşmən gözü ilə baxan tərəflərdir. Biri Avropa İttifaqıdır, bir yandan Ermənistanla yeni bir razılaşma əldə edir. Avropa İttifaqı Ermənistan tərəfdaşlığı üçün strateji gündəm adlanan bir sənəd imzalayır və bu sənəddə hərbi canilərin, Xocalı soyqırımını törətmiş cinayətkarların azad edilməsi, onların əsir kimi tanınması məsələsi açıq şəkildə öz əksini tapıb.

İkinci məsələ isə, heç bir halda "Tramp marşrutu" deyilən, əslində, Zəngəzur dəhlizinin həmin o sənəddə adının belə çəkilməməsi, Paşinyanın "Sülh kəsişməsi" adlanan qondarma bir təşəbbüsünə dəfələrlə istinad edilməsidir. Görünür ki, bax, həmin siyasi dairələr heç bir halda sülh müqaviləsinin imzalanmasında maraqlı deyillər, yaxud onun vaxtını uzatmaq istəyirlər. Həm də qarşı tərəf, – söhbət Moskva və Tehrandan gedir, – onlar Avropa İttifaqı ilə tamamilə zidd mövqedədirlər, amma "Tramp marşrutu" ilə bağlı məsələlərdə çox qəribə bir həmrəylik nümayiş etdirirlər. Həmrəylik də onunla bağlıdır ki, həm İran, həm də Rusiya açıq şəkildə "Tramp marşrutu"nun əleyhinə olduğunu ifadə ediblər və hesab edirlər, bu marşrut heç bir halda işə düşməməlidir. Bu, adıçəkilən dövlətlərin regional maraqlarına ziddir və sair. Yəni göründüyü kimi, iki istiqamətdən, Avropa İttifaqı bir yandan, digər yandan isə Rusiya və İrandan Zəngəzur

dəhlizinin işə salınması ilə bağlı, bax, belə təzyiqlərin biz şahidiyik.

Görünür ki, 2026-cı ildə sülh prosesinin öz məntiqi sonluğuna çatmasını hesablayırlar və bu, heç bir halda adıçəkilən tərəflərin mənafeyinə uyğun gəlmir. Amma ölkə Prezidenti cənab İlham Əliyevin sülh prosesi ilə bağlı çox prinsipial və qətiyyətli mövqeyi var, biz sülh istəyirik, biz sülh təşəbbüslərinin müəllifiyik. Amma eyni zamanda, təsadüfi deyildir ki, məhz bu parlamentdə 2026-cı ilin dövlət büdcəsini təsdiqləyərkən biz hərbi və təhlükəsizlik büdcəmizi daha 318 milyon manat artırıb 8,7 milyard manata çatdırdıq ki, bu da tamamilə düzgün addımdır və reallığa adekvatdır.

Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Azər Badamov. Buyurun.

**Azər Badamov**. Təşəkkür edirəm. Hörmətli Sahibə xanım, hörmətli həmkarlar. Azərbaycan dövləti hər bir insanın cəmiyyətdə məqbul həyat keyfiyyəti yaşaması, bunu ləyaqətlə daşıması üçün tələb olunan əsas ictimai ehtiyaclardan asılı olmayaraq, bütün insan hüquqlarını və fundamental azadlıqları təşviq edir, qətiyyətlə qoruyur. Azərbaycan vətəndaşına xidmət etmək Azərbaycan Prezidentinin siyasətinin təməlində dayanır. Qayda və qanunlar hamı və hər kəs üçün bərabər olduğu qədər insan hüquqları da istisnasız olaraq hər kəs üçün təmin edilir. Müzəffər Ali Baş Komandanımızın hərtərəfli siyasəti sayəsində Azərbaycan Konstitusiyasının ali hüquqi qüvvəsi, sadəcə, Azərbaycanın bütün ərazilərində bərqərar olunmaqla kifayətlənmir, bu amil bütün dünyaya nümayiş etdirilərək "Konstitusiya və Suverenlik İli" ilə daha da şöhrət, qürur, əhəmiyyət qazanır. Başa vurduğumuz,

verilən ad ilə daha da əhəmiyyət qazanan bu il Azərbaycanın xarici və daxili siyasətində misilsiz uğurlarla tarixə həkk olunur.

Hörmətli həmkarlar, dövlət başçımızın ən həssas nöqtəsi yürütdüyü siyasətdə Ümummilli Lider Heydər Əliyevin ideyalarına göstərdiyi sadiqlikdir. Çünki Ümummilli Liderimiz Azərbaycana rəhbərlik etdiyi bütün dönəmlərdə insan amilinə xüsusi ilə həssaslıqla yanaşıb. Ulu Öndərin idarəçiliyi zamanından başlayaraq ölkəmizdə insan hüquqlarının müdafiəsi, qanunların aliliyinin qorunması istiqamətində məqsədyönlü addımlar atılıb. Məhz Ulu Öndərin səyi ilə 1993-cü ildən ölüm hökmü cəzası üzərində moratorium qoyuldu. 1998-ci ildə isə bu cəza tamamilə ləğv olundu. Cənab Prezident İlham Əliyev göstərir ki, Ümummilli Liderin ideyalarına bu sahədə də sadiqdir.

Hörmətli həmkarlar, Azərbaycan Prezidenti and içərkən Konstitusiyamıza və müqəddəs Qurani Kərimə and içir. Hüquqlara hörmət etmək, onu təmin etmək dövlətimizin ana qanununda nəzərdə tutulduğu qədər, bağışlamaq, əfv etmək, bağışlanılmaq və əfv edilmək də dinimizdə savabdır. Mətbuata verilmiş məlumata, Milli Məclisə təqdim olunmuş amnistiya aktının layihəsinə görə, ümumilikdə, 20 mindən çox şəxsi əhatə edəcək sənəd say baxımından ən böyük olacaq. Bu isə o deməkdir ki, 20 mindən çox evə istilik gələcək, həmin evlərə xoşbəxtlik, nur bəxş ediləcək. Bu, dövlət başçımızın humanistlik, qayğıkeşlik nümunəsi göstərdiyindən, siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayandığından xəbər verir.

Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Şahin İsmayılov. Buyurun.

**Şahin İsmayılov**. Təşəkkür edirəm. Çox hörmətli xanım sədr, hörmətli həmkarlar. Ötən həftə cənab Prezident "Azərbaycan Respublikasında rəqəmsal iqtisadiyyatın inkişafına dair 2026–2029-cu illər üçün Strategiya"nı təsdiq etdi.

Müasir dünyada rəqəmsal iqtisadiyyat artıq texnoloji yenilik anlayışı ilə məhdudlaşmır. Bu gün rəqəmsallaşma dövlətlərin iqtisadi dayanıqlığını, milli təhlükəsizliyini, sosial rifahını və qlobal sistemdə mövqeyini müəyyən edən əsas amilə çevrilmişdir. "Azərbaycan Respublikasında rəqəmsal iqtisadiyyatın inkişafına dair 2026–2029-cu illər üçün Strategiya" da məhz bu reallıqlar fonunda formalaşdırılmış, uzaqgörən və milli maraqlara əsaslanan strateji sənəddir.

Bu strategiya Azərbaycanın iqtisadi inkişaf modelində yeni keyfiyyət mərhələsinə keçidi təmin etməyi, qeyri-neft sektorunun gücləndirilməsini və innovasiya əsaslı artımın təmin olunmasını qarşıya məqsəd qoyur. Rəqəmsal transformasiya vasitəsi ilə iqtisadiyyatın bütün sahələrində məhsuldarlığın yüksəldilməsi, şəffaflığın artırılması və səmərəliliyin təmin edilməsi əsas prioritet kimi müəyyən edilmişdir.

Burada bir neçə məqamı qeyd edə bilərik. Birinci mühüm istiqamət iqtisadi dayanıqlılığın gücləndirilməsidir. Qlobal iqtisadi qeyri-sabitlik, investisiya axınlarının azalması və geosiyasi risklər fonunda rəqəmsal iqtisadiyyat ölkələr üçün alternativ deyil, zəruri inkişaf modelidir. Azərbaycanın rəqəmsal strategiyası məhz bu riskləri minimallaşdırmağı, daxili potensiala əsaslanan çevik və davamlı iqtisadi sistemin formalaşdırılmasını hədəfləyir.

İkinci mühüm istiqamət insan kapitalının inkişafıdır.

Strategiya aydın şəkildə göstərir ki, gələcəyin iqtisadiyyatı bilik, innovasiya və texnoloji bacarıqlar üzərində qurulacaqdır. Rəqəmsal bacarıqların inkişafı, beynəlxalq sertifikatların dəstəklənməsi və texnologiya yönümlü təhsil proqramları Azərbaycanın gənc əhalisini qlobal əmək bazarında rəqabətədavamlı gücə çevirəcəkdir.

Üçüncü əsas istiqamət dövlət idarəçiliyində rəqəmsal transformasiyadır. Data əsaslı qərarvermə mexanizmlərinin tətbiqi, "Hökumət buludu" və vahid platformalar idarəetmədə səmərəliliyi artırır, xərcləri azaldır və vətəndaşlara göstərilən xidmətlərin keyfiyyətini yüksəldir. Bu, dövlət–vətəndaş münasibətlərində etimadın güclənməsinə xidmət edir.

Strategiya həmçinin yaşıl və dayanıqlı inkişaf prinsiplərini özündə birləşdirir. Enerji səmərəli data mərkəzləri, karbonu azaldan rəqəmsal həllər və yaşıl texnologiyalar Azərbaycanın beynəlxalq iqlim öhdəliklərinə uyğun inkişafını təmin edəcəkdir.

Nəticə etibarı ilə, Azərbaycan Respublikasının rəqəmsal iqtisadiyyat strategiyası yalnız texnoloji sənəd deyil, milli inkişafın, iqtisadi suverenliyin və gələcək nəsillərin rifahının təminatıdır. Bu strategiya Azərbaycanın qlobal iqtisadi sistemdə layiqli yer tutmasını, innovasiya əsaslı artımı və dayanıqlı gələcəyi təmin edəcəkdir. Bu yol xəritəsi Azərbaycanın gələcəyinə inamın, güclü dövlətçilik ənənəsinin və müasir çağırışlara adekvat cavabın göstəricisidir.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Əli Məsimli. Buyurun.

**Əli Məsimli**. Çox sağ olun, hörmətli sədr. Prezidentin amnistiya aktını "Konstitusiya və Suverenlik İli"ndə

verilmiş çox təqdirəlayiq bir hadisə hesab edirəm. Eyni zamanda, qeyri-neft sektoru ilə bağlı bəzi fikirlərimi bildirmək istəyirəm.

2026-cı ilin büdcə zərfi müzakirə olunan zaman aydın şəkildə göründü ki, 2026-cı ildə və orta perspektivdə iqtisadi artımın əsas hərəkətverici qüvvəsi qeyri-neft sektoru olacaq. Bu kontekstdə qeyd etmək istərdim ki, qeyri-neft sektorunda 2029-cu ilə qədər ümumi daxili məhsulun 80 faizinə çatma istiqamətində qoyulan hədəfə nail olmaq üçün bu istiqamətdə aqrar sahədə, emal sənayesində və turizm sahəsində mövcud potensiallardan optimal şəkildə, əlaqələndirilmiş, səmərəli bir modeli ortaya qoymaq problemin həllinə böyük təkan vermiş olacaq.

Hörmətli sədr, son 10 ilin statistikasına baxsaq, 2016–2023-cü illərdə kənd təsərrüfatının artım tempi ümumi daxili məhsulun artım tempindən yüksək olub. Deməli, kənd təsərrüfatı ümumi daxili məhsulun artım tempinə təkan verə bilib. Amma keçən ildən başlayaraq kənd təsərrüfatının artım tempi ümumi daxili məhsulun artım tempindən aşağı düşüb, bu ilin 11 ayında da 1,1 faiz təşkil edib. Deməli, təsir göstərmək imkanı azalacaq. Təsadüf təkrar olunmur. 2 il təkrar olunubsa, deməli, bu, çox ciddi bir siqnaldır. Bu kontekstdə, hesab edirəm ki, kənd təsərrüfatı sahəsində mövcud potensialdan doğru, səmərəli istifadə etməklə biz ölkədə yerli istehsalı əsaslandırılmış şəkildə yenidən qurmaq, ərzaq bolluğu yaratmaq, bu sahədə çalışan 1,8 milyon nəfərə yaxın insanın və ya bütün məşğul olanların 35 faizdən çoxunun həyat səviyyəsini yüksəltmək, emal sənayesinin xammal bazasını möhkəmləndirmək, ərzaq təhlükəsizliyinin təminatını yüksəltmək, insanların iş dalınca rayonlardan Bakıya gəlişinin sürətini xeyli azaltmaq – mən deyərdim ki, bu

istiqamətdə xeyli iş görə bilərik. Digər sahələrdə də belədir.

Ona görə də, hörmətli sədr, bu kontekstdə Sizə müraciət etmək istəyirəm. Sizin təşəbbüsünüzlə Milli Məclisdə indiyədək təşkil edilən aktual mövzulu ictimai müzakirələrin, müzakirəyə çıxarılan məsələlərin real təsirindən çıxış edərək gələn il kənd təsərrüfatı, emal sənayesi, turizm sahəsində mövcud vəziyyətə, problemlərə, perspektivlərə həsr olunmuş silsilə ictimai müzakirələrin keçirilməsi bu sahədə problemin həllinin sürətləndirilməsinə real töhfə verə bilər.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Əli müəllim. Siz bununla bağlı aktual olmaq şərti ilə hansısa mövzuları müəyyənləşdirib hörmətli Tahir müəllimlə, sonra Azər müəllimlə də danışa bilərsiniz. Sonra baxarıq.

Məlahət İbrahimqızı. Buyurun.

**Məlahət İbrahimqızı.** Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Bildiyiniz kimi, dekabr ayı xalqımızın tarixində ehtiramla yad etdiyimiz Ulu Öndərimizin anım günü və Azərbaycanı dünyada qalib xalq kimi tanıdan müzəffər Ali Baş Komandanımızın ümumxalq bayramı kimi qeyd etdiyimiz doğum günü və eləcə də Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü kimi əlamətdar hadisələrlə zəngindir.

Bununla bərabər, dekabr ayı həm də Azərbaycan xalqının əzəli və əbədi yurd yerlərindən, indiki Ermənistan ərazisindən erməni daşnakları tərəfindən məcburi qovulmaları və didərgin düşmələri ilə xatırlanır. Bir əsrdə 4 dəfə deportasiyaya məruz qalmış Qərbi azərbaycanlıların vəziyyətinə ilk hüquqi-siyasi qiymət də məhz 1997-ci il dekabrın 18-də Ulu Öndərimiz Heydər Əliyev tərəfindən

imzalanmış fərmanla verilmişdir. Dekabrın 5-i sonuncu azərbaycanlıların Ermənistandan çıxarıldığı acı gün kimi qeyd olunur.

Qərbi azərbaycanlılar təkcə qaçqın deyil, onlar həm də beynəlxalq hüququn subyekti olaraq kütləvi deportasiyanın, etnik təmizləmənin, soyqırımın qurbanlarıdır. Çox təəssüf ki, eyni motiv və eyni ssenari ilə Krım tatarlarına, Ahısqa türklərinə, Srebrenitsa əhalisinə qarşı törədilmiş cinayətlərə BMT və bəzi beynəlxalq təşkilatlar tərəfindən hüquqi-siyasi qiymət verilsə də, Qərbi azərbaycanlılara qarşı törədilmiş insanlığa qarşı cinayətə beynəlxalq təşkilatlar hələ də susqunluq göstərir.

Bu bir gerçəklikdir ki, möhtərəm Prezidentimiz İlham Əliyevin xeyir-duası ilə təsis edilmiş Qərbi Azərbaycan İcmasının fəaliyyəti, Qərbi Azərbaycana Qayıdış Konsepsiyası ilk gündən Azərbaycan xalqının vahid ideologiyasına çevrilmişdir. Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyində dövlətimizin başçısı Qərbi azərbaycanlıların doğma yurdlarına qayıdışının təmin olunmasında əsas vəzifələrin dövlətin üzərinə düşdüyünü qeyd etməklə bərabər, bu məsələdə bütün təşkilatların və qurumların da dəstək verməsinin zəruri olduğunu dedi.

Hörmətli Sahibə xanım, təqdirəlayiqdir ki, Sizin təşəbbüsünüzlə deputatlardan ibarət Qərbi Azərbaycana Qayıdış üzrə Təşəbbüs Qrupu yaradılmış və Sizin rəhbərliyinizlə bu mövzuda parlamentdə dəfələrlə dinləmələr keçirilmişdir. Bu gün də bu istiqamətdə fəaliyyət davam edir.

Bu mənada milli qanunvericiliyimizin, xüsusi ilə də 20 ildən artıq müddət ərzində qəbul olunmuş müvafiq qanunların deportasiya, etnik təmizləmə və soyqırımı qurbanı olan Qərbi azərbaycanlıların hüquqları aspektindən yenidən ekspertiza olunması zəruridir.

Hesab edirəm ki, Sizin dəstəyinizlə bu məsələyə baxıla bilər. Milli Məclisin bu sahədə çalışan çox təcrübəli ekspertləri var. Eləcə də parlament həmkarlarım arasında beynəlxalq hüquq və hüquq sahəsində tanınmış mütəxəssislər var və Milli Məclisin Qərbi Azərbaycana Qayıdış üzrə Təşəbbüs Qrupunun da birgə və səmərəli əməkdaşlığı ilə bu problemin hüquqi tənzimlənməsi ilə bağlı çox əhəmiyyətli nəticələr əldə ediləcəkdir. Hesab edirəm ki, bununla biz beynəlxalq təşkilatlar qarşısında da Qərbi azərbaycanlıların hüquqlarının bərpası ilə bağlı müəyyən məsələləri qaldıra bilərik.

Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Tural Gəncəliyev. Buyurun.

**Tural Gəncəliyev.** Hörmətli xanım sədr, hörmətli həmkarlar. Gələn il Ermənistanda keçiriləcək seçkilər kontekstində biz erməni kilsəsinin və Ermənistandakı radikal müxalifət ünsürlərinin sanki bir cəbhədə birləşərək revanşist ideyaları yenidən gündəmə gətirdiklərinin şahidi oluruq. Təbii ki, bu, çox narahatedicidir, çünki tarixən erməni xalqını ideoloji olaraq zəhərləyən erməni kilsəsi yenidən bu istiqamətdə fəaliyyətini aparır. Gələn il keçiriləcək seçkilər kontekstində seçicilərə heç bir gələcək vədi vermək imkanı olmayan bu qüvvələr yenə yalnız revanşizm, Azərbaycanla müharibəyə çağırış fonunda gündəmi məşğul etmək istəyirlər. Təbii ki, belə fürsətlərin olması həm Ermənistan radikal diasporu, həm də xarici, – məsələn, Avropa İttifaqı ilə Ermənistan arasında dekabrın 2-də imzalanmış strateji gündəm sənədi də, – revanşistlər üçün əlavə imkanlar yaradır.

Təbii ki, Avropa İttifaqı – Ermənistan strateji gündəm sənədində bizim maraqlarımıza zidd olan ifadələr yer

almışdır. “Qarabağ ermənilər”, “didərgin düşmüş ermənilər”, “Dağlıq Qarabağ” ifadəsi. Bu həmin revanşistlərə yenidən imkan yaradır ki, bu məsələləri gündəmdə saxlasınlar, regionda yaratdığımız sülh gündəminə mane olsunlar.

Azərbaycan–Avropa İttifaqı ilə bağlı məsələyə gəldikdə, Avropa İttifaqındakı dairələr də unutmamalıdırlar, hazırda yeganə, bəlkə də unikal bir hadisədir ki, biz Avropa İttifaqının üzvü olmadan Avropa İttifaqının üçdə bir üzv ölkələri ilə strateji əməkdaşlıq sənədi imzalamışıq.

Bu gün elə Avropa İttifaqı üzv ölkələri var ki, rəsmi Brüsseldən daha çox rəsmi Bakı ilə münasibətlərini qurmağa, isti saxlamağa çalışırlar. Elə cənab Prezidentin sonuncu Slovakiya səfəri bunun bariz nümunəsidir.

Bu gün biz 11 Avropa ölkəsinə neft, qaz ixrac edirik. Bunun 8-i konkret olaraq Avropa İttifaqının üzv ölkələridir. Bu gün Vışeqrad qrupu və digər Şərqi Avropa ölkələri ilə çox isti, çox yaxşı münasibətlərimiz var. Təkcə bir nömrəli ticarət partnyorumuz İtaliya ilə münasibətlərimiz nəyə desəniz dəyər.

Yəni bütün bunlardan dərs çıxarmaları lazım, xüsusi ilə keçmiş Avropa İttifaqının liderləri Cozef Borrell, Avropa Parlamentində Federika Moqerini olsun, Avropa xarici fəaliyyət xidmətinin buraxdığı səhvləri hazırkı Avropa isteblişmenti buraxmamalıdır və sülh gündəminə töhfə vermək lazımdır. Bunun əksini etmək, təbii ki, nə Ermənistanla Azərbaycan arasındakı sülh prosesinə kömək etmiş olur və ümumiyyətlə, bu məsələyə mane olur.

Bütün bu məsələləri bir daha vurğulayaraq həm Ermənistanda revanşistlərə qarşı gedən prosesləri ciddi şəkildə izləməliyik, həm də avropalı həmkarlarımızı daha ehtiyatlı olmağa çağırmalıyıq.

Sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Asif Əsgərov. Asif müəllim, buyurun.

**Asif Əsgərov.** Çox hörmətli xanım sədr, hörmətli millət vəkilləri, qonaqlar, media nümayəndələri. Xalqımız hər il 12 dekabr tarixini, müasir Azərbaycan dövlətçiliyinin banisi, xalqımızın unudulmaz lideri, görkəmli dövlət xadimi Heydər Əliyevin əziz xatirəsini ehtiramla yad edir. Onun anım günü təkcə bir tarix deyil, Azərbaycan xalqının yaddaşında dərin iz qoyan böyük bir ömrün, böyük bir xidmətin, böyük bir irsin xatırlanmasıdır.

Heydər Əliyev həyatını, bütövlükdə, öz xalqına həsr etmiş lider idi. Onun fəaliyyəti təkcə siyasi məsələlərlə məhdudlaşmırdı, o, Azərbaycanın adı ilə bağlı olan hər bir layihəyə, hər bir insana xüsusi diqqət, qayğı və məsuliyyətlə yanaşırdı. Bu da xalqla lider arasında sarsılmaz bir etimad körpüsü qururdu.

1990-cı illərin çətin və mürəkkəb dönəmlərində Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanı dağılmaq təhlükəsindən xilas etdi. Məhz onun qətiyyəti, təcrübəsi və uzaqgörən siyasəti sayəsində Azərbaycan sabitliyə qovuşdu, dövlətçiliyimiz qorunub saxlanıldı.

Heydər Əliyev müasir Azərbaycanın inkişaf modelini formalaşdıran, ölkəmizi dünyada tanıdan böyük strateq idi. Neft strategiyası, beynəlxalq əməkdaşlıq, iqtisadiyyatda islahatlar, ordu quruculuğu, diaspor siyasəti, təhsil və mədəniyyət sahələrinin inkişafı kimi istiqamətlərdə atdığı addımlar Azərbaycanı regionun nüfuzlu dövlətlərindən birinə çevirdi. Bu gün ölkəmizin nailiyyətləri təsadüfi deyil, onlar Heydər Əliyevin yaratdığı möhkəm təməlin üzərində yüksəlir.

Bu nailiyyətlərin ən parlaq nümunəsi isə Zəfər

tariximiz, torpaqlarımızın azadlığı, ədalətin bərpası oldu. 2020-ci ildə xalqımız həmrəyliyini, ordumuz gücünü, dövlətimiz isə iradəsini bütün dünyaya nümayiş etdirdi. Bu tarixi qələbənin kökündə Ulu Öndərin illər əvvəl yaratdığı ordu quruculuğu siyasəti, milli birliyi gücləndirən ideyaları və müstəqil dövlətçilik fəlsəfəsi dayanırdı.

Heydər Əliyevin uzaqgörənliyi, onun “güclü dövlət, güclü ordu” prinsipi gələcək qələbəmizin bünövrəsini qoymuşdu. O zaman qoyulan strateji kurs bu gün möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Məhz bu davamlılıq Azərbaycanın tarix yazmasına imkan verdi.

Prezident İlham Əliyev Ulu Öndərin müəyyən etdiyi yolu həm siyasi qətiyyət, həm də modern dövlətçilik təfəkkürü ilə daha da inkişaf etdirdi. Onun rəhbərliyi altında Azərbaycan öz suverenliyini tam bərpa etdi, ölkəmiz regionda və dünyada söz sahibi olan güclü bir dövlətə çevrildi. Zəfərimiz  həm də bir daha sübut etdi ki, Heydər Əliyevin ideyaları bu gün də yaşayır, bu gün də dövlətçiliyimizin ən möhkəm dayağıdır.

Hörmətli xanım sədr, hörmətli həmkarlar. Bu gün hər birimiz Ulu Öndərin söylədiyi məşhur kəlamın nə qədər dəyərli olduğunu daha yaxşı anlayırıq: “Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam”. Bu sözlər, sadəcə, bir cümlə deyil, milli birlik, milli qürur və milli kimlik duyğusunun güclü ifadəsidir. Onun rəhbərliyi altında bu kimlik yalnız qorunmadı, həm də daha da möhkəmləndi.

Heydər Əliyevin xatirəsini anmaq onun ideyalarına, dövlətçilik ənənəsinə sadiq qalmaq deməkdir. Bu, yalnız keçmişi yad etmək deyil, həm də gələcəyə inamla baxmaq deməkdir. Onun yaratdığı irs bu gün də yaşayır, gələcək

nəsillər üçün yol göstərir. Biz də bu yolda addımlayaraq ölkəmizin güclənməsi, rifahı və inkişafı naminə çalışmalıyıq.

Ulu Öndərin xatirəsi xalqımız üçün əbədi və müqəddəsdir. Biz onu yalnız böyük bir lider kimi deyil, həm də Azərbaycan xalqının taleyinə məsuliyyətlə yanaşan, millətinə sevgi ilə xidmət edən unikal bir şəxsiyyət kimi xatırlayırıq.

Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Hörmətli həmkarlar, mən hamıya təşəkkür edirəm. Biz gündəliyin məsələlərinə keçirik. Qeyd edim ki, bu gün biz 10 məsələni müzakirə etməliyik.

Gündəliyin ilk 3 məsələsi beynəlxalq sənədlərin təsdiq edilməsi ilə bağlıdır. Odur ki, qanun layihələri bir oxunuşda baxılıb qəbul ediləcək. Bildiyiniz kimi, bu, "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələbidir.

Beləliklə, 1-ci məsələyə keçirik. Bu məsələ "Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Türkiyə Respublikasının Milli Müdafiə Nazirliyi arasında qarşılıqlı hərbi təhlükəsizliyin möhkəmləndirilməsinə dair Anlaşma Memorandumu"nun təsdiq edilməsi haqqında qanun layihəsidir. Layihəyə Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində baxılıb. İndi isə mən komitənin sədri hörmətli Arzu Nağıyevə söz verirəm. Arzu müəllim, buyurun, bununla bağlı məlumat verin.

**Arzu Nağıyev,** *Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, media nümayəndələri. "Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Türkiyə Respublikasının Milli

Müdafiə Nazirliyi arasında qarşılıqlı hərbi təhlükəsizliyin möhkəmləndirilməsinə dair Anlaşma Memorandumu"nun təsdiq edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi Milli Məclisə cənab Prezidentin imzası ilə daxil olub.

Anlaşma memorandumu 2025-ci il 22 iyul tarixində İstanbul şəhərində Azərbaycan Respublikasının müdafiə naziri və Türkiyə Respublikasının milli müdafiə naziri tərəfindən imzalanmışdır. Məqsəd qarşılıqlı olaraq tərəflərin dövlətlərinin təhlükəsizliyinin və ərazi bütövlüyünün təmin olunması, habelə suverenliyinin və müstəqilliyinin qorunması üçün tərəflər arasında müdafiə sahəsində əməkdaşlığın gücləndirilməsidir.

Sənəd Azərbaycan–Türkiyə strateji müttəfiqliyinin, o cümlədən Şuşa Bəyannaməsində təsbit olunmuş müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlığın dərinləşdirilməsinə xidmət edir.

Memorandumun məqsədi hərbi təhlükəsizlik sahəsində qarşılıqlı koordinasiyanın gücləndirilməsi, birgə təlimlərin, hərbi təhsilin və müdafiə sənayesi üzrə əməkdaşlığın inkişaf etdirilməsidir.

Hörmətli həmkarlar, sənəd 8 maddədən ibarətdir. Razılığa əsasən, tərəf dövlətlər birinin silahlı təcavüzə məruz qaldığı halda, Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin 51-ci maddəsi ilə tanınan fərdi və birgə özünümüdafiə hüquqlarının həyata keçirilməsi üçün bir-birlərinə qarşılıqlı yardımın göstərilməsi öhdəliyini götürürlər.

Tərəflərin bir-birlərinə hərbi yardım göstərməsi onlardan birinin sorğusu əsasında və buna dair milli qanunvericiliklə müəyyən edilmiş qaydaya uyğun olaraq həyata keçirilir. Tərəflər dinc dövrdə, yuxarıda qeyd edildiyi

kimi, mütəmadi olaraq birgə hərbi təlimlər və manevrlər keçirirlər.

Memorandum yalnız hərbi əməkdaşlıq və hərbi təhlükəsizlik sahəsindəki məsələləri əhatə edir və bu çərçivədə yalnız müdafiə sahəsində qarşılıqlı yardım, təlim, təchizat və tərəflərin birlikdə fəaliyyət qabiliyyətinin artırılmasını ehtiva edir.

Tərəflər öz milli qanunvericiliklərinə uyğun olaraq, hərbi sahədə məlumat mübadiləsini və hərbi kəşfiyyat əməkdaşlığını gücləndirirlər. Buna müvafiq olaraq hərbi təhlükəsizlik sahəsində əldə olunan məlumatları – məxfi, tam məxfi, xüsusi əhəmiyyətli, bir-birləri ilə paylaşa və bu məlumatlardan birgə əməliyyatlar zamanı istifadə edə bilərlər.

Tərəflər arasında bu memorandumun təfsiri və ya həyata keçirilməsi ilə bağlı yaranan fikir ayrılıqları yalnız tərəflər arasında keçiriləcək danışıqlar və məsləhətləşmələr yolu ilə həll edilir.

Anlaşma memorandumuna tərəflərin qarşılıqlı yazılı razılığına əsasən istənilən zaman düzəliş və ya əlavələr edilə bilər. Tərəflərdən hər biri digər tərəfə ləğvetmə niyyətini diplomatik kanallar vasitəsi ilə yazılı şəkildə bildirərək memorandumu ləğv edə bilər. Bu halda memorandum həmin bildirişin alındığı tarixdən 60 gün sonra ləğv edilir.

Anlaşma memorandumu beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq həyata keçirilir, üçüncü dövlətlərə qarşı yönəlmir və regionda sülh və təhlükəsizliyin möhkəmləndirilməsinə töhfə verir.

Layihə Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində müzakirə olunmuş və plenar iclasa tövsiyə edilmişdir. Səs verməyinizi xahiş edirəm.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Hörmətli həmkarlar, qanun layihəsinə ikinci komitədə – Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində də baxılmışdır. Komitənin sədri hörmətli Səməd Seyidova söz verirəm. Səməd müəllim, buyurun.

**Səməd Seyidov,** *Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri.*

Çox sağ olun, xanım sədr. Arzu müəllim qanun layihəsini çox yüksək səviyyədə və geniş təqdim etdi. Doğrudan da, "Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Türkiyə Respublikasının Milli Müdafiə Nazirliyi arasında qarşılıqlı hərbi təhlükəsizliyin möhkəmləndirilməsinə dair Anlaşma Memorandumu" həddindən artıq vacib və əhəmiyyətlidir. Şuşa Bəyannaməsindən sonra bu sahədə əlaqələrimiz inkişaf edir və bu inkişafın əyani şəkildə nümunələrindən biri də bu gün bizim qarşımızdadır.

Türkiyə–Azərbaycan əlaqələri xüsusi ilə hərbi sahədə genişlənir. Bu əlaqələr Azərbaycanın yaratdığı sülh və davamlı inkişaf konsepsiyasına tam şəkildə uyğundur. Ona görə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi tam şəkildə bunun lehinədir və səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun.

Müzakirəyə keçirik. Təklif var, çıxışlar 5 dəqiqəyə qədər olsun. Hamı razıdır?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Hikmət Məmmədov. Buyurun.

**Hikmət Məmmədov.** Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Biz, doğrudan da, çox tarixi bir sənədi, əslində, bu gün bir növ ratifikasiya edirik. Milli Məclisi-

mizə Azərbaycan Prezidentinin imzası ilə daxil olubdur. Bu sənəd Türkiyə ilə Azərbaycan arasında təhlükəsizlik məsələlərini, müdafiə nazirlikləri arasındakı əməkdaşlıq məsələlərini keyfiyyətcə tamamilə yeni bir mərhələyə qaldırır.

Sənədin başqa bir əhəmiyyəti ondan ibarətdir ki, Türkiyə və Azərbaycan arasında inkişaf edən bu əlaqələr Türk Dövlətləri Təşkilatına üzv olan digər ölkələr üçün də bir növ təşviq rolunu oynayır. Onlarla da bənzər sənədlərin hazırlanıb imzalanması üçün nümunə yaradır, bu da məsələnin ikinci tarixi tərəfidir.

Sənəddə 1921-ci ildə imzalanmış Qars müqaviləsinə və düz 100 il sonra, 2021-ci ildə imzalanmış Şuşa Bəyannaməsinə istinad edilir. Mənə elə gəlir, biz bu sənəd vasitəsi ilə bir daha bunu sübut etmiş oluruq ki, 1921-ci ildə əldə edə bilmədiklərimizi 2021-ci ildə əldə etməyi bacardıq.

Qars müqaviləsinə nəyə görə istinad edilir? Mən düşünürəm ki, biz əgər Hegelin dövlət fəlsəfəsi kontekstində yanaşsaq, Hegel dövləti dərslər öyrənmək üçün bir məktəb adlandırır. Onda mənə elə gəlir, bu iki tarixi sənədi qarşılıqlı tarixi müqayisə etməliyik ki, nəyə görə burada Qars müqaviləsinə istinad etmək ehtiyacı yaradılıbdır.

Naxçıvana Ermənistanın tərkibində muxtariyyət statusu verilməsi məsələsi gündəmə gətirilmişdi, Azərbaycanın və Türkiyənin israrı sayəsində Qars müqaviləsində Naxçıvan Muxtar Respublikasına Azərbaycanın tərkibində muxtariyyət statusu verildi. Ancaq Qarabağ haqqında bir söz keçmədiyinə görə 1923-cü ildə bundan istifadə edən güc mərkəzləri Qarabağa muxtar vilayət statusu verdilər.

Ona görə mən düşünürəm ki, tarixi yaddaşımızı diri tutmaq naminə bu sənədləri qarşılıqlı müqayisə etməyi

bacarmalıyıq. Nəyə görə bu sənədlərə istinad edildiyini bilməliyik və xüsusi ilə gənc nəsil bunu bilməlidir.

Hörmətli xanım sədr, bir neçə gün öncə Milli Məclisdə Milli Elmlər Akademiyası ilə bərabər mühüm tarixi bir konfrans keçirildi. Buna görə Sizə təşəkkür edirik. Yüksək səviyyədə təşkil olunan bu konfrans, əslində, Azərbaycan dilinin qorunmasına, dilimizin imkanları ilə bağlı perspektivlərin müəyyən edilməsinə həsr olunmuşdu ki, bu da Azərbaycan Prezidentinin çağırışları əsasında baş tutmuşdu.

Bir gün öncə, yəni dekabr ayının 15-də biz YUNESKO tərəfindən qəbul edilmiş mühüm bir günü, Türk dili ailəsi gününü qeyd etdik. Mən bu münasibətlə türk dilinin daşıyıcısı olan və yaxud bu dili sonradan öyrənib ünsiyyət vasitəsi kimi istifadə edən, türk dilini sevən bütün xalqları təbrik edirəm. Azərbaycanda, Dağıstanda, Balkanlarda, Türkiyə ərazisində yaşayan bütün xalqlar ki türk dilində danışırlar, türk dilini özlərinin ünsiyyət dili kimi mənimsəyiblər, mənə elə gəlir ki, hamısının bayramıdır. Bu areal, bəzilərinin dediyi kimi, 250–350 milyon deyil, əgər mən dediyim faktorları da nəzərə alsaq, yarım milyarda yaxın insanın bu dildən istifadə etməsi deməkdir.

Mənə elə gəlir, bu sənədlə söylədiyim fikrin əlaqəsi ondan ibarətdir ki, bu gün ratifikasiya edəcəyimiz, səs verəcəyimiz bu sənəd onların da təhlükəsizliyi üçün gələcəkdə böyük əhəmiyyət kəsb edəcəkdir. Ona görə mən bu layihəyə səs verəcəyəm.

Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Bəhruz Məhərrəmov.

**Bəhruz Məhərrəmov.** Çox sağ olun. Hörmətli sədr, əziz həmkarlar. Baxmayaraq ki, dövlətlərin bir-biri ilə

əməkdaşlıq etməsi beynəlxalq hüququn ümumtanınmış normalarında əksini tapmış 10 mühüm prinsipdən biridir, amma  dəyişməyən bir reallıq var ki, müasir geosiyasi konfiqurasiyada yalnız müstəqil dövlət suveren əməkdaşlıq barədə danışa və düşünə bilər.

Cənab İlham Əliyevin çoxvektorlu xarici siyasət kursunun hər bir elementi ilk növbədə Azərbaycanın müstəqil suveren güc kimi özünü təsdiq etdiyini göstərir. O cümlədən də qardaş Türkiyə ilə Ulu Öndər Heydər Əliyevin hakimiyyəti illərində sağlam əsaslarla qurulmasına başlanmış münasibətlər.

Bilirsiniz ki, Türkiyə bizim müstəqilliyimizi ilk tanıyan dövlətdir, lakin 1993-cü ilə qədər Azərbaycan–Türkiyə münasibətləri adekvat əsaslarda qurula bilməyib. Neobolşevik təfəkkürlü iqtidarlar Türkiyə ilə münasibətlərimizə növbəti böyük qardaş eyforiyası ilə yanaşırdılar, bu da sonrakı dövrlərdə bəzi hallarda arzuolunmaz mənzərələrə gətirib çıxarmışdı. Lakin Ulu Öndərin hakimiyyətə gəlişi situasiyanı dəyişdi və biz, nəhayət, bərabərhüquqlu tərəfdaşlıq dövrünə start verdik.

Möhtərəm cənab İlham Əliyev isə qardaş Türkiyə ilə əlaqələrimizi real əsaslarda konkret hərəkət mexanizmləri ortaya qoyan Şuşa Bəyannaməsinə qədər yüksəltdi. Məhz bu iradə, bu qətiyyətin nəticəsi olaraq Bakı və Ankara beynəlxalq hüququn prinsip və normalarına, o cümlədən də BMT Nizamnaməsinə uyğun olaraq, qlobal və regional sülh, sabitlik və təhlükəsizliyin təmin edilməsində birgə səylərin davam etdirilməsi, müştərək maraq kəsb edən strateji məsələlərdə fəaliyyətlərin qarşılıqlı şəkildə əlaqələndirilməsi, türk dünyasının davamlı inkişafına yönəlmiş qarşılıqlı fəaliyyətlərin zəruriliyi kimi ideallarьn realizəsini yeni mərhələyə daşıdı.

Bəzən Şuşa Bəyannaməsi və strateji tərəfdaşlığımız Azərbaycanın təhlükəsizliyinin qarantı kimi təfsir olunur, əslində isə, bu tərəfdaşlıq yalnız Azərbaycanın deyil, həm də Türkiyənin, hər iki dövlətin, həm də, bütövlükdə, bölgəmizdə təhlükəsizliyin qarantıdır. Bu mənada Azərbaycan və Türkiyə arasında hərbi təhlükəsizliyin möhkəmləndirilməsinə dair memoranduma biz məhz qeyd olunan siyasi kursun davamlılığı kimi baxmalıyıq. Habelə bu sənəd Azərbaycanın müstəqil iradə ifadəsinin, suveren qərar imkanlarının bəyanı deməkdir. Xalqımız, dövlətimiz və bütövlükdə, türk dünyası üçün xeyirli olsun.

Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Siyavuş Novruzov. Buyurun.

**Siyavuş Novruzov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar. İlk növbədə mən də cənab Prezidentə Milli Məclisə əfv müraciəti ilə əlaqədar təşəkkürümü bildirirəm. İndiyə qədər Ümummilli Liderin, Mehriban xanımın və cənab Prezidentin müraciəti ilə Milli Məclis tərəfindən 12 amnistiya aktı qəbul olunub, 77 əfv sərəncamı imzalanıbdır. Bu da Azərbaycan vətəndaşlarının azadlığa qovuşması və bayram günündə öz ailələri ilə birləşməsi üçün vacib, növbəti sərəncamlardan biridir.

Qəbul olunan qanun çox vacib qanundur. Böyük strateji əhəmiyyət daşıyır. Mən hesab edirəm, gələcəkdə biz Pakistanla, Özbəkistanla da belə qanun layihəsi imzalamalıyıq ki, ikitərəfli, çoxtərəfli əlaqələrimiz daha da genişlənsin.

Bu qanunun əsası Naxçıvanda türk dövlətlərinin toplantısında qoyulubdur və bundan sonra Şuşa Bəyannaməsi ilə davam olunub və Şuşa Bəyannaməsi ilə də həyata keçirilir. Cənab Prezidentdən də orada soruşanda ki, Sizin

istiqamət haradır, "türk dünyası" demişdi. Hesab edirəm, bu qanun layihəsi türk dünyasının daha da genişlənməsi, türklərin birliyi, türklərin bir yerdə olması üçün vacibdir.

Heç təsadüfi deyil ki, YUNESKO tərəfindən də türk dili ailəsi günü qəbul olunubdur və dünən türk dili ailəsi günü idi.

Mən bu qanun layihəsinə səs verəcəyəm, həmkarlarımı da səs verməyə dəvət edirəm.

Sağ olun.

**Sədrlik edən.** Sağ olun, Siyavuş müəllim.

Sahib Alıyev. Buyurun.

**Sahib Alıyev.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, dəyərli həmkarlar. "Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Türkiyə Respublikasının Milli Müdafiə Nazirliyi arasında qarşılıqlı hərbi təhlükəsizliyin möhkəmləndirilməsinə dair Anlaşma Memorandumu" iki qardaş dövlət arasında bu qəbildən növbəti bir anlaşmadır.

Az öncə dəyərli həmkarım Hikmət Məmmədovun da dediyi kimi, bu nəinki digər türk dövlətlərini də gələcəkdə bu qəbildən əməkdaşlığa sövq edəcək, eyni zamanda, mən bu fikirdəyəm ki, bu anlaşma, bütövlükdə, hər iki dövlətin müdafiə potensialının gücləndirilməsi ilə yanaşı, regionun özünün subyektivliyinin güclənməsinə xidmət edir.

Azərbaycan Prezidenti cənab İlham Əliyev Slovakiyada rəsmi səfərdə olarkən bir ifadə işlətdi – "azadlıq müharibəsi". Bu anlaşma bir daha onu göstərir ki, bu azadlıq müharibəsi də eyni ilə Qarabağ münaqişəsi kimi Azərbaycan üçün artıq bitib və onun nəticələrini dəyişmək haqda düşünənlər, sırf imperiya mərəzindən çıxış edənlər üçün heç bir şans yeri buraxılmır.

Burada Slovakiyadan söz düşmüşkən bir məsələyə də toxunmaq istəyirəm. Orada 2 ölkə arasında yenə eyni

sektorda, yəni hərbi sahədə əməkdaşlıqla bağlı bir məsələ də vurğulandı ki, bu, Qərbin hərbi texnologiyasında Azərbaycana və regiona gətirilməsi deməkdir.

Mən burada bir daha  o məsələnin üzərinə qayıdıram ki, Azərbaycan bu azadlıq müharibəsində, sadəcə, özünün suverenliyini təmin etməyib. Azərbaycan bu azadlıq müharibəsində bizə necə yanaşmalarından asılı olmayaraq, uzun zaman hətta düşmənçilik siyasəti yeritmələrinə, arada xudbinliyə, alverçi təfəkkürünə yol vermələrinə baxmayaraq, bütün region ölkələri üçün müstəqil siyasət yeritməyə, suveren siyasət yeritməyə yol açır. Ona görə də mən böyük məmnuniyyətlə bu layihənin lehinə səs verəcəyəm.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Hörmətli həmkarlar, bu məsələ ilə bağlı müzakirələr bitdi. Mən indi qanun layihəsini səsə qoyuram. Xahiş edirəm, münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.49 dəq.) |
|---|---:|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi qəbul edildi.

Hörmətli həmkarlar, 2-ci məsələyə keçirik. “Kosmonavtların xilas edilməsi, kosmonavtların geri qaytarılması və kosmik fəzaya çıxarılmış obyektlərin geri qaytarılması haqqında Saziş”ə qoşulmaq barədə qanun

layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün komitənin üzvü hörmətli Zaur Şükürova söz vermək istəyirəm. Zaur müəllim, buyurun.

**Zaur Şükürov,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar, dəyərli media nümayəndələri. Azərbaycan Respublikasının Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü qaydasında layihəsi Milli Məclisdə müzakirəyə təqdim olunan qanunla ölkəmizin qoşulması nəzərdə tutulan "Kosmonavtların xilas edilməsi, kosmonavtların geri qaytarılması və kosmik fəzaya çıxarılmış obyektlərin geri qaytarılması haqqında Saziş" 1968-ci il aprelin 22-də imzalanmış və bu sazişin 7-ci maddəsinin tələbinə uyğun olaraq, həmin il dekabrın 3-də qüvvəyə minmişdir.

Sözügedən saziş kosmik gəminin şəxsi heyətinin qəzaya uğraması, təcili və gözlənilmədən eniş etmə barədə məlumat alan tərəfin vəzifələrini müəyyən edir, bu sahədə yarana biləcək münasibətlərin effektiv qaydada tənzimlənməsini nəzərdə tutur. Sazişdə kosmonavtlara mümkün olan bütün yardımların göstərilməsini, onların dərhal təhlükəsiz geri qaytarılmasını və sair məsələləri tənzimləyən bir sıra vacib müddəalar müəyyən edilmişdir.

Sazişdə qəza, fəlakət, təcili və ya gözlənilmədən eniş səbəbi ilə kosmik gəminin şəxsi heyəti üçün bütün mümkün tədbirlərin görülməsi öhdəliyi müəyyənləşir, razılığa gələn tərəflərin üzərinə bu barədə Birləşmiş Millətlər Təşkilatının Baş katibinin dərhal məlumatlandırılması vəzifəsi qoyulur.

Sazişin digər müddəaları sadalanan məsələlərdən irəli gələn texniki, inzibati, xilasetmə tədbirlərinin həyata

keçirilməsi qaydalarını, imzalanma və ratifikasiya üçün prosedurları, sazişin mətninə düzəlişləri, mətnlərin autentikliyi və digər əlaqəli məsələləri tənzimləyir.

Xüsusi ilə qeyd edilməlidir ki, ölkəmiz, habelə Azərbaycan alimləri kosmik tədqiqatlar sahəsində istər sovet hakimiyyəti illərində, istərsə də müstəqilliyimizi bərpa etdikdən sonra əhəmiyyətli uğurlara imza atmışdır. Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyi dönəmində bu məsələlər daim diqqətdə saxlanılmış və Prezident cənab İlham Əliyevin liderliyi ilə ölkəmizdə bu sahədə mühüm əhəmiyyətli layihələr həyata keçirilməkdədir.

Azərbaycan on ildən artıqdır ki, beynəlxalq kosmik ailənin üzvüdür. Hazırda 2 telekommunikasiya, 1 yer səthinin müşahidəsi peykinə malikik. Bu peyklər azərbaycanlı mütəxəssislər tərəfindən idarə olunur və 45-dən çox ölkəyə xidmət göstərir.

Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti tərəfindən 2023-cü il 24 iyun tarixində "Kosmik fəaliyyət haqqında" Azərbaycan Respublikasının Qanunu təsdiq edilmişdir. Bu qanunda ölkəmizin kosmik fəaliyyətinin prinsipləri və bu fəaliyyətin tənzimlənməsi, bu sahədə beynəlxalq əməkdaşlıq və digər mühüm məsələlər öz əksini tapmışdır.

Həmçinin qeyd edilməlidir ki, 2023-cü ilin 2–6 oktyabr tarixlərində Bakıda 74-cü Beynəlxalq Astronavtika Konqresi keçirilmişdir. Tədbirdə 100-dən çox ölkəni təmsil edən 5000-dən çox nümayəndə iştirak etmişdir. Tədbirdə Prezident cənab İlham Əliyev çıxış etmişdir. Diqqətçəkən məqam ondan ibarətdir ki, bu konqres 50 il sonra yenidən Bakıda keçirilmişdir. Belə ki, 1973-cü ildə Ulu Öndər Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrdə Sovet

İttifaqı üzrə bu konqresin məhz Bakıda təşkil edilməsinə qərar verilmişdir. Bu isə Azərbaycan elminin inkişafında, ölkəmizin və tanınmış alimlərimizin dünya miqyasında tanıdılmasında Ulu Öndərin misilsiz xidmətlərini bir daha nümayiş etdirir.

2023-cü ildə Bakıda keçirilən 74-cü Beynəlxalq Astronavtika Konqresində iştirak edən ABŞ-nin Milli Aeronavtika və Kosmos Administrasiyasının, NASA-nın elm üzrə sabiq köməkçisi Tomas Zurbuxen Azərbaycanın 50 il əvvəl bu mötəbər tədbirə ev sahibliyi etdiyinə diqqət çəkərək qeyd etdi: "Mən İsveçrə dağlarında böyümüşəm və kosmosa dair baxdığım ilk televiziya şousu Amerika kapsulu ilə sovet kapsulunun birləşməsi ilə bağlı olub. Bu plan 50 il əvvəl məhz burada, Bakıda işlənib hazırlanıb".

Hörmətli xanım sədr, hörmətli deputatlar. Əminliklə söyləmək olar ki, Azərbaycanın "Kosmonavtların xilas edilməsi, kosmonavtların geri qaytarılması və kosmik fəzaya çıxarılmış obyektlərin geri qaytarılması haqqında Saziş"ə qoşulması ölkəmizin kosmik sahədə beynəlxalq əməkdaşlığının inkişafına mühüm töhfə verəcəkdir.

Sözügedən sazişə qoşulmaq barədə qanun layihəsi İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində müzakirə edilmiş və yekdilliklə dəstəklənərək Milli Məclisin plenar iclasına tövsiyə olunmuşdur. Komitəmizin adından hörmətli deputat həmkarlarımdan bu qanun layihəsini dəstəkləmələrini xahiş edirəm.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində də baxılıb. Komitənin rəyini bildirmək üçün mən sözü hörmətli Elman Nəsirova verirəm. Buyurun, Elman müəllim, komitənin üzvü kimi komitənin rəyini bildirin.

**Elman Nəsirov,** *Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü.*

Hörmətli millət vəkilləri, "Kosmonavtların xilas edilməsi, kosmonavtların geri qaytarılması və kosmik fəzaya çıxarılmış obyektlərin geri qaytarılması haqqında Saziş"ə qoşulmaq barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında hörmətli həmkarım Zaur Şükürov geniş və ətraflı məlumat verdi.

Sadəcə, əlavə olaraq onu söyləyim ki, sözügedən qanun layihəsi parlamentin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində də müzakirə olunub, bəyənilib və lehinə səs verilib. Plenar iclasda da həmkarlarımı bu qanun layihəsinin lehinə səs verməyə dəvət edirəm.

Sağ olun.

**Sədrlik edən.** Sağ olun, Elman müəllim.

Hörmətli həmkarlar, müzakirəyə keçirik, yazılan var.

Müşfiq Məmmədli. Müşfiq müəllim, buyurun.

**Müşfiq Məmmədli.** Hörmətli xanım sədr, hörmətli həmkarlar. Bu gün müzakirə etdiyimiz məsələ Azərbaycan Respublikasının beynəlxalq hüquq sisteminə, xüsusi ilə də kosmik fəaliyyət sahəsində məsuliyyətli və etibarlı tərəfdaş kimi mövqeyinə bir daha işıq salır. Bu baxımdan "Kosmonavtların xilas edilməsi, kosmonavtların geri qaytarılması və kosmik fəzaya çıxarılmış obyektlərin geri qaytarılması haqqında Saziş"ə qoşulmaq barədə qanun layihəsi mühüm əhəmiyyət kəsb edir.

Bu sənəd 1968-ci ildə qəbul olunmuş kosmik hüququn əsas sütunlarından biri hesab olunan mühüm beynəlxalq razılaşmadır. Saziş kosmik fəaliyyət zamanı insan həyatının ali dəyər kimi qorunmasını, kosmonavtların təhlükəsizliyini, kosmik obyektlərin məsuliyyətli idarə olun-

masını təmin edir.

Azərbaycan Respublikasının bu sazişə qoşulması ölkəmizin beynəlxalq öhdəliklərinə sadiqliyinin, eləcə də sülh, humanizm və elmi əməkdaşlıq prinsiplərinə verdiyi dəyərin açıq göstəricisidir. Bu addım bir daha sübut edir ki, Azərbaycan yalnız regional deyil, qlobal miqyasda da məsuliyyətli aktor kimi çıxış edir.

Hörmətli həmkarlar, bu gün Azərbaycan artıq kosmik sahədə passiv müşahidəçi deyil. "Azərkosmos" vasitəsi ilə ölkəmiz qısa müddətdə regionun aparıcı kosmik dövlətlərindən birinə çevrilmişdir. "Azerspace", "Azersky" peykləri telekommunikasiya, yer müşahidəsi, fövqəladə halların idarə olunması, ekoloji monitorinq və milli təhlükəsizlik sahələrində mühüm rol oynayır.

"Azərkosmos" təkcə texnoloji nailiyyət deyil, eyni zamanda, Azərbaycanın elmi potensialının, iqtisadi müstəqilliyinin və strateji baxışının nəticəsidir. Bu qurum beynəlxalq tərəfdaşlarla əməkdaşlıq edərək kosmik hüquq, məsuliyyət, təhlükəsizlik standartlarına tam uyğun fəaliyyət göstərir. Məhz bu kontekstdə müzakirə etdiyimiz saziş Azərbaycanın kosmik fəaliyyətinin hüquqi və etik əsaslarını daha da möhkəmləndirir.

Kosmosda insan həyatının qorunması, obyektlərin geri qaytarılması və dövlətlərarası əməkdaşlıq prinsipləri Azərbaycanın milli maraqları ilə tam uyğunlaşır.

Sonda qeyd etmək istərdim ki, bu sazişə qoşulmaqla Azərbaycan Respublikası bir daha bəyan edir: biz kosmosu rəqabət deyil, əməkdaşlıq məkanı, təhlükə deyil, inkişaf fürsəti, nəzarətsiz sahə deyil, hüquqla tənzimlənən ümumbəşəri dəyər kimi görürük.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Ülviyyə xanım da yazılıb.

Ülviyyə Həmzəyeva. Buyurun.

**Ülviyyə Həmzəyeva.** Hörmətli xanım sədr, hörmətli həmkarlar, media nümayəndələri. "Kosmonavtların xilas edilməsi, kosmonavtların geri qaytarılması və kosmik fəzaya çıxarılmış obyektlərin geri qaytarılması haqqında Saziş"ə qoşulmaq barədə Azərbaycan Respublikası qanununun layihəsinə mən də müsbət rəy bildirəcəyəm.

Mən, sadəcə olaraq, bir təklif etmək istəyirəm. Bilirsiniz ki, bu sahədə kosmik muzeyin tikilməsi də çox maraqlı olar. Çünki muzey həm də ciddi və aktiv dövlətlərarası layihələr, investisiyalar üçün də böyük bir reklamdır. Məsələn, Çinin "Bir kəmər, bir yol" layihəsi aerokosmik cihazlarla xidmətin göstərilməsi, qorunması və elmin inkişafı proyektidir. Məhz buna görə də tamhüquqlu Azərbaycan kosmonavtikası muzeyi yaratmaq vacibdir. Özü də qapalı təşkilatlar nəzdində deyil, muzey ictimaiyyət və qonaqlar üçün açıq olsa daha yaxşı olar. Yəni təklifim bundan ibarətdir.

Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Hörmətli həmkarlar, mən məsələni səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.59 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun qəbul edildi.

Növbəti məsələyə keçirik. “Azərbaycan Respublikası Hökuməti ilə Ruanda Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında Saziş”in təsdiq edilməsi barədə qanun layihəsidir. Bu layihəyə də İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Zaur müəllim, mən yenə də Sizdən xahiş edəcəyəm. Bu gün komitə adından Siz məlumat verirsiniz. Buyurun, məlumat verin.

**Zaur Şükürov.** Təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli xanım sədr, hörmətli deputatlar, dəyərli media nümayəndələri. Azərbaycan Respublikasının Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü qaydasında layihəsi Milli Məclisdə müzakirəyə təqdim olunan qanunla təsdiq edilməsi nəzərdə tutulan “Azərbaycan Respublikası Hökuməti ilə Ruanda Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında Saziş” Ruanda Respublikasının Prezidenti Pol Kaqamenin ölkəmizə rəsmi səfəri çərçivəsində 2025-ci il sentyabrın 20-də Bakı şəhərində imzalanmışdır.

Hörmətli xanım sədr, sazişlə bağlı məlumatı təqdim etməzdən öncə, icazənizlə, Afrika qitəsi ölkələri ilə əməkdaşlığın perspektivləri baxımından bir neçə məqama diqqət çəkmək istərdim.

Afrika qitəsi hazırda əksər inkişaf etmiş ölkələrin əməkdaşlıq coğrafiyasında mühüm əhəmiyyət kəsb edən istiqamətlərdəndir. Təkcə ticarət dövriyyəsinə nəzər salsaq, məsələn, 2024-cü ildə Afrika qitəsinin Avropa İttifaqı ilə ticarət dövriyyəsi 355 milyard avro, Çin Xalq Respublikası ilə 300 milyard dollar, ABŞ ilə 110 milyard dollar, qardaş Türkiyə ilə 37 milyard dollar təşkil etmişdir və bu rəqəmlərdə ilbəil artım müşahidə edilir. Ötən 16 ildə Çin Xalq Respublikası davamlı olaraq Afrika qitəsinin əsas ticarət tərəfdaşı olmuşdur.

Son illərin təcrübəsi göstərir ki, Afrika ölkələri tarix boyu onların üzləşdiyi müstəmləkəçilik siyasəti, faciələr, təbii ehtiyatlarının talan edilməsi, nüvə sınaqları və bütün bunların nəticəsi olaraq, regiondakı kəskin ekoloji problemlərlə bağlı çağırışları qlobal miqyasda səsləndirən və ümumiyyətlə, bu xalqların səsinin eşidilməsinə dəstək verən, onların iztirablarını anlayan və ədalətli mövqe sərgiləyən dövlətlərlə münasibətlərin inkişafına xüsusi ilə maraq göstərməkdədirlər.

Məhz Azərbaycan Prezidenti cənab İlham Əliyev dünya səviyyəli heyrətamiz liderlik və ədalət nümunəsi sərgiləyərək istər Qoşulmama Hərəkatına uğurlu sədrliyimiz dönəmində, istərsə də Bakıda keçirilən COP29 çərçivəsində baş tutan inkişaf etməkdə olan kiçik ada dövlətlərinin sammiti zamanı bu çağırışların dünya ictimaiyyətinin diqqətinə çatdırılmasında mühüm rol oynadı. Bu səbəbdən də Afrika dövlətləri ikitərəfli münasibətlərdə beynəlxalq hüququn hamılıqla qəbul olunmuş norma və prinsiplərini rəhbər tutan, qarşılıqlı hörmət, bərabərhüquqlu və ədalətə əsaslanan müstəqil, prinsipial xarici siyasət kursu yürüdən Azərbaycanla əməkdaşlığın dərinləşdirilməsinə önəm verirlər və Ruanda da bu baxımdan istisna deyil.

Azərbaycanla Ruanda arasında diplomatik münasibətlər 2004-cü il mayın 28-də qurulmuşdur. İki ölkə arasında əməkdaşlıq uzun müddət çoxtərəfli müstəvilərdə – Birləşmiş Millətlər Təşkilatı, Qoşulmama Hərəkatı və İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində davam etdirilirdi. Bu platformalarda Ruanda daim Azərbaycana dəstəyini ifadə edib. Belə ki, Ruandanın Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyinin uzadılmasının lehinə səs verməsi, COVID-19 pandemiyası dövründə Azərbaycanın Qoşul-

mama Hərəkatının sədri kimi irəli sürdüyü təşəbbüsləri fəal şəkildə dəstəkləməsi, xüsusi ilə də Bakıda keçirilən COP29 çərçivəsində Ruanda Prezidentinin Bakıya səfərinin həyata keçirilməsi bunu bir daha təsdiq edir.

Bu ilin sentyabr ayında Ruanda Prezidentinin ölkəmizə rəsmi səfərinin baş tutması isə iki ölkə arasında əməkdaşlığın gələcək inkişafı üçün vacib əhəmiyyət kəsb edən dialoq hesab edilə bilər.

Qeyd edilməlidir ki, Afrika qitəsi dövlətləri, o cümlədən Ruanda ilə hərbi-texniki, mədən sənayesi, "ASAN xidmət" modeli, elm, təhsil, kənd təsərrüfatı, ekologiya və ətraf mühit, turizm və digər qarşılıqlı maraq doğuran sahələrdə geniş əməkdaşlıq imkanları mövcuddur.

Hörmətli xanım sədr, hörmətli deputatlar. Hazırda müzakirə etdiyimiz, 25 maddə və marşrut cədvəlini əks etdirən əlavədən ibarət olan "Azərbaycan Respublikası Hökuməti ilə Ruanda Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında Saziş" iki ölkə arasında hava əlaqəsinin qurulması məqsədi ilə Çikaqo Konvensiyasına əlavə saziş bağlamaq niyyəti ilə imzalanmışdır. Sənədin maddələri qeyd olunan konvensiyanın beynəlxalq hava əlaqəsinə tətbiq edilən müddəaları ilə şərtlənir.

Razılığa gələn tərəflərdən hər biri digərinə yerə enmədən öz dövlətinin ərazisi üzərindən uçmaq və qeyri-kommersiya məqsədləri üçün öz dövlətinin ərazisində dayanmaq, həmçinin bu Sazişin əlavəsində göstərilən marşrutlar üzrə beynəlxalq hava əlaqələrini yerinə yetirmək məqsədi ilə digər hüquqlar verir.

Tərəflər mülki hava gəmilərinin qanunsuz ələ keçirilməsinin və belə hava gəmilərinin, onların sərnişinlərinin və heyətinin, hava limanlarının və aeronaviqasiya vasitələrinin təhlükəsizliyinə qarşı yönəldilən digər qanunsuz

hərəkətlərin, habelə mülki aviasiyanın təhlükəsizliyinə qarşı hər hansı digər təhlükənin qarşısının alınması üçün müraciət əsasında bir-birlərinə bütün lazımi yardımı göstərirlər.

Hər bir razılığa gələn tərəf müəyyən edilmiş marşrutlar üzrə razılaşdırılmış xidmətləri yerinə yetirmək məqsədi ilə digər razılığa gələn tərəfə bir və ya bir neçə aviasiya şirkətini yazılı şəkildə diplomatik kanallar vasitəsi ilə təyin etmək hüququna malikdir. Bununla yanaşı, tərəflər yazılı bildiriş əsasında belə təyinatı ləğv etmək və ya dəyişmək hüququna da malikdirlər.

Hörmətli xanım sədr, hörmətli deputatlar. Sazişin təsdiq edilməsi barədə qanun layihəsi İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində müzakirə edilmiş və yekdilliklə dəstəklənərək Milli Məclisin plenar iclasına tövsiyə olunmuşdur. Komitəmizin adından hörmətli deputat həmkarlarımdan bu qanun layihəsini də dəstəkləməyi xahiş edirəm.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Səməd müəllim, bu məsələyə sizin komitənizdə də baxılıb. Xahiş edirəm, komitənin rəyini bildirəsiniz.

**Səməd Seyidov.** Hörmətli xanım sədr, bizim üstünlüyümüz ondan ibarətdir ki, hörmətli Zaur müəllim həm İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin, həm də bizim komitənin çox dəyərli üzvüdür. Çox yüksək səviyyədə onun həm iqtisadi, həm siyasi, həm də beynəlxalq münasibətlər səviyyəsində əhəmiyyətini bizə təqdim etdi. Mən, sadəcə, bir məsələni əlavə edim ki, doğrudan da, Afrika bu gün ən gənc, ən dinamik şəkildə inkişaf edən, təbii sərvətlər nöqteyi-nəzərindən ən varlı qitələrdən biridir, bəlkə də ən əhəmiyyətlisidir.

Təsəvvür edin, Afrikada bu gün 54 ölkə mövcuddur. Onların 53-ü ilə Azərbaycanın diplomatik əlaqələri var və artıq 6 səfirliyimiz fəaliyyət göstərir. Ona görə hər bir belə saziş Azərbaycanın milli maraqlarına uyğundur və biz komitəmiz tərəfindən bunu tam şəkildə dəstəkləyirik.

Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Hörmətli həmkarlar, mən məsələni səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.06 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun qəbul edildi.

Hörmətli həmkarlar, biz gündəliyin digər məsələlərinə keçirik. Qeyd edim ki, növbəti 2 məsələ möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub, mahiyyətcə də bir-birinə bağlıdır.

Beləliklə, 4-cü məsələ Nəqliyyat-ekspedisiya fəaliyyəti haqqında qanun layihəsidir, gündəliyin 5-ci məsələsi isə Mülki Məcəllədə, Ticarət Gəmiçiliyi Məcəlləsində, "Nəqliyyat haqqında" və "Avtomobil nəqliyyatı haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Həmişə olduğu kimi, biz əvvəlcə qanun layihələri barədə ümumi məlumatı dinləyək, daha sonra digər prosedurlara keçək. Qeyd edim ki, hər iki qanun layihəsinə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxıl-

mışdır. Layihəyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Azər Əmiraslanova söz verirəm. Azər müəllim, buyurun.

**Azər Əmiraslanov,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputat həmkarlar. Hər iki qanun layihəsi barədə əvvəlki oxunuşlarda geniş məlumat verilmişdir. Bəri başdan qeyd edək ki, gündəliyin 5-ci məsələsi olaraq təqdim olunan qanun layihəsi Nəqliyyat-ekspedisiya fəaliyyəti haqqında qanun layihəsindən irəli gəlir və uyğunlaşma xarakterlidir.

Yeni qanun layihəsinin ikinci oxunuşunda hörmətli həmkarlarımız Musa Qasımlı, Fazil Mustafa, Hikmət Babaoğlu tərəfindən qanun layihəsinin, əsasən, terminologiyasına dair bir sıra təkliflər irəli sürülmüşdür. Həmin təkliflərə müvafiq qaydada baxılmış və müəyyən edilmişdir ki, qanun layihəsində istifadə olunan termin və anlayışlar mövcud qanunvericilik aktlarında artıq öz əksini tapır. Bu səbəbdən həmin təkliflərin nəzərə alınması mümkün olmayıb və bu barədə hörmətli həmkarlarımıza müvafiq arayışlar təqdim edilmişdir.

Bununla belə, qəbul edilmiş normativ hüquqi aktlarda qanunvericilik terminologiyasının təkmilləşdirilməsi istiqamətində görülən işlərin bundan sonra da davam etdirilməsini məqsədəuyğun hesab edirik.

Qeyd edilənləri nəzərə alaraq, hər iki qanun layihəsinin üçüncü oxunuşda olduğu kimi səsə qoyulmasını xahiş edirəm.

Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun, Azər müəllim.

Hörmətli həmkarlar, mən indi qanun layihələrini bir-bir səsə qoyacağam.

Beləliklə, Nəqliyyat-ekspedisiya fəaliyyəti haqqında qanun layihəsinə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.09 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

İndi isə 5-ci məsələdəki qanun layihəsini mən səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.09 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Bu qanun layihəsi də üçüncü oxunuşda qəbul edildi, çox sağ olun.

Bizim növbəti məsələmiz 6-cı məsələdir. "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" və digər 4 qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Bu layihəyə də İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Yenə də Azər müəllim, mən sözü Sizə verirəm. Xahiş edirəm, məlumat verin. Buyurun.

**Azər Əmiraslanov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputat həmkarlar. Təqdim edilmiş qanun layihəsi barədə birinci və ikinci oxunuşlarda geniş məlumat verilmişdi. İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinə həmkarlarımız tərəfindən layihəyə dair hər hansı rəy və təklif daxil olmamışdır. Qeyd edilənləri nəzərə alaraq, üçüncü oxunuşda təqdim etdiyimiz qanun layihəsinin olduğu kimi səsə qoyulmasını xahiş edirəm.

Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, bilirsiniz ki, bu qanun layihəsinə Təbii ehtiyatlar, energetika və ekologiya komitəsində də baxılmışdır. Komitənin rəyini bildirmək üçün hörmətli Naqif Həmzəyevə söz verirəm. Naqif müəllim, buyurun.

**Naqif Həmzəyev,** *Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin üzvü.*

Təşəkkür edirəm, xanım sədr. Nəzərinizə çatdırım ki, komitəmiz tərəfindən qanun layihəsi tam olaraq dəstəklənmişdir. Səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun.

Hörmətli həmkarlar, mən qanun layihəsini üçüncü oxunuşda səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.11 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bizim gündəliyimizdə 4 məsələ qalır və bu məsələlərin hamısı birinci oxunuşda olan qanun layihələridir. Ona görə də, xahiş edirəm, çıxışlarda birinci oxunuşun tələblərini nəzərə alasınız.

7-ci məsələyə keçirik. Bu məsələ "Dövlət rüsumu haqqında" və "Daşınmaz əmlakın dövlət reyestri haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə, çox hörmətli Azər müəllim, sizin komitənizdə baxılıb – İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində. Xahiş edirəm, buyurun, məlumat verin, birinci oxunuşdur.

**Azər Əmiraslanov.** Sağ olun. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Birinci oxunuşda təqdim etdiyimiz qanun layihəsi "Dövlət rüsumu haqqında" və "Daşınmaz əmlakın dövlət reyestri haqqında" qanunlarda dəyişikliklər edilməsini nəzərdə tutur.

Bu dəyişikliklər daşınmaz əmlaka mülkiyyət və digər əşya hüquqlarının dövlət qeydiyyatı zamanı göstərilən xidmətlər üzrə rüsumların tənzimlənməsi və sosial cəhətdən həssas əhali qruplarının müdafiəsinin gücləndirilməsi məqsədini daşıyır.

Xatırladaq ki, qüvvədə olan qanunvericiliyə əsasən bu xidmətlərə görə tutulan dövlət rüsumunun məbləği 10 manatdan 75 manata kimi dəyişir.

Hörmətli həmkarlar, təklif edilən dəyişiklik sosial baxımdan həssas kateqoriyaya aid şəxslərin həmin xidmətlərə görə dövlət rüsumundan azad olunmasını nəzərdə tutur. Rüsumdan azadolmanın əhatə dairəsinə aşağıdakı şəxslər daxildir:

- müharibə ilə əlaqədar əlilliyi olan şəxslər;
- 20 yanvar hadisələri ilə bağlı əlilliyi olan şəxslər;
- hərbi xidmət vəzifələrini yerinə yetirməklə əlaqədar, o

cümlədən Çernobıl Atom Elektrik Stansiyasında xidmətlə bağlı əlilliyi olan şəxslər;

- şəhid ailəsi statusu almış şəxslər.

Bu azadolma dövlətin sosial müdafiə siyasətinin tərkib hissəsi olaraq sosial baxımdan həssas kateqoriyaya aid şəxslərin daşınmaz əmlakın mülkiyyət və digər əşya hüquqlarının, o cümlədən ipotekanın dövlət qeydiyyatına alınması ilə bağlı sənədlərin verilməsi sahəsindəki xidmətlər və hüquqi hərəkətlər üzrə xərclərinin tamamilə aradan qaldırılması məqsədini daşıyır.

Dövlətin sosial müdafiə siyasətinin gücləndirilməsini nəzərdə tutan bu qanun layihəsinin birinci oxunuşda müzakirəsini və dəstəklənməsini məqsədəuyğun hesab edirik.

Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Müzakirəyə keçirik. Yazılanlar var.

Razi Nurullayev. Buyurun.

**Razi Nurullayev.** Hörmətli xanım sədr, hörmətli deputatlar, media nümayəndələri. Qanunun müzakirəsindən istifadə edərək minlərcə vətəndaşımızın çox ciddi və ağrılı bir problemindən danışmaq istəyirəm.

Hazırda ölkənin bir çox kənd və qəsəbələrində insanlar evlərinə sənəd ala bilmədikləri üçün qaz və işıq çəkdirə bilmirlər. Söhbət qeyri-qanuni tikintilərdən getmir. Söhbət illərdir yaşayış olan, ailələrin məskunlaşdığı evlərdən gedir. Ən acınacaqlısı isə odur ki, çox vaxt qaz borusu həmin evlərin düz önündən keçir. Texniki imkan, qaz var, amma vətəndaşa deyilir ki, evin qeydiyyat sənədini gətir. Kənd yerində yaşayan, aşağı gəlirli ailə üçün bu sənədi almaq həm baha, həm də olduqca mürəkkəb prosesdir. Aylarca davam edən sənədləşmə, idarələr arasında süründürməçilik insanları bezdirir. Nəticədə vətəndaşlar bu

prosesdən imtina edir və deyir ki, evimdə donaram, amma bu sənədləşmə əzabını bir daha yaşamayacağam.

Mən onlarca deyil, hətta deyərdim, yüzlərcə bu cür vətəndaşla özümün seçki dairəmdə, İmişlidə şəxsən görüşmüşəm və onların problemlərini bilirəm. Bu, artıq təkcə sosial məsələ deyil. Bu, insan ləyaqətinə toxunan bir problemdir.

Hazırda Milli Məclisdə müzakirə edilən “Dövlət rüsumu haqqında” və “Daşınmaz əmlakın dövlət reyestri haqqında” qanunlarda dəyişikliklərdə müəyyən sosial kateqoriyalar üçün mühüm imtiyazlar nəzərdə tutulur. Şəhid ailələri, müharibə əlilləri, müharibə veteranları və sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslər üçün rüsumlardan azadolma və güzəştlər təklif edilir. Bu, çox düzgün və dəstəklənməli yanaşmadır və mən dəstəkləyirəm. Eyni zamanda, bir reallığı da deməliyik.

Kənd yerlərində yaşayan, illərdir, məskunlaşan, lakin bu imtiyazlı kateqoriyalara daxil olmayan minlərcə aşağı gəlirli ailə var ki, mövcud mexanizmlərdən kənarda qalır. Bu insanlar nə sənədləri tamamlaya, nə də kommunal xidmətlərə çıxış əldə edə bilirlər. Mən hesab edirəm ki, məhz bu nöqtədə qanunvericiliyin yanaşması tamamlanmalıdır. Əgər dövlət müəyyən ailələr üçün sənədləşmə prosesində sosial ədaləti əsas götürürsə, eyni prinsip yaşayış faktı olan, lakin sənədsiz qalan evlərə minimum kommunal təminat məsələsində də tətbiq edilməlidir.

Təklif edirəm ki, yaşayış faktı yerli icra hakimiyyəti və ya bələdiyyə tərəfindən təsdiqlənən fərdi yaşayış evlərinə mülkiyyət sənədi olmadan da minimum kommunal xidmətlər, xüsusən qaz və elektrik müvəqqəti əsasla təmin edilsin və paralel olaraq bu ailələr üçün əlçatan sənədləşmə mexanizmi tətbiq edilsin.

Qaz lüks deyil, istilik imtiyaz deyil. Bu, insanın

yaşamaq üçün ən elementar ehtiyacıdır. Əgər boru evin önündən keçirsə, amma uşaq soyuqda qalırsa, burada problem vətəndaşda deyil, belə çıxır ki, sistemdədir. Biz qanunları insanlar üçün qəbul edirik və bu məsələ də məhz bu yanaşma ilə həll olunmalıdır.

Təşəkkür edirəm, xanım sədr.

**Sədrlik edən.** Sağ olun.

Vasif Qafarov.

**Vasif Qafarov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Hesab edirəm ki, təqdim olunan "Dövlət rüsumu haqqında" və "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi sosial ədalət və dövlətin sosial müdafiə siyasətinin gücləndirilməsi baxımından olduqca müsbət qiymətləndirilməli və təqdir edilməlidir.

Layihədə Azərbaycanın ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi uğrunda sağlamlığını itirmiş və əlilliyi müəyyən edilmiş şəxslərin, eləcə də şəhid ailələrinin sosial həssaslığının nəzərə alınması dövlətin vətəndaşa olan məsuliyyətinin bariz nümunəsidir.

Daşınmaz əmlakla bağlı hüquqların dövlət qeydiyyatı zamanı dövlət rüsumundan azadolmaların tətbiqi həmin kateqoriyaya aid şəxslərin hüquqi və maddi yükünü əhəmiyyətli dərəcədə azaldır, onların mülki hüquqlardan daha rahat və maneəsiz istifadə etməsinə şərait yaradır. Xüsusi ilə müharibə, 20 Yanvar hadisələri və Çernobıl Atom Elektrik Stansiyasında xidmətlə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin bu güzəştlərdən faydalanması sosial dövlət prinsiplərinə tam uyğundur və bu, təqdirəlayiqdir.

Layihə həmçinin hüquqi mexanizmlərin sadələşdirilməsinə, daşınmaz əmlakla bağlı əməliyyatların əlçatanlı-

ğının artırılmasına və sosial ədalətin təmin olunmasına xidmət edir ki, bu da onu aktual və zəruri edir.

Hörmətli həmkarlar, hesab edirəm ki, daşınmaz əmlakla bağlı hüquqların dövlət qeydiyyatı zamanı dövlət rüsumunun ödənilməsindən azad olunanların kateqoriyasına təltifi olan müharibə veteranlarının da daxil edilməsi məsələsinə baxılması məqsədəuyğun olardı. Bu addım vətənpərvərlik, dövlətçilik və milli mənəvi dəyərlərin qorunması prinsiplərinə, habelə gənclərin vətənpərvərlik ruhunda tərbiyəsini nəzərdə tutan normativ hüquqi aktların məqsədlərinə uyğundur.

Eyni zamanda, hesab edirəm ki, layihənin icrasının daha effektiv təşkili məqsədi ilə dövlət rüsumlarından azadolma hüququ olan şəxslər barədə vahid elektron reyestrin yaradılması və bu məlumatların bütün dövlət xidmətlərinin, o cümlədən daşınmaz əmlakın dövlət qeydiyyatını həyata keçirən orqanların informasiya sistemlərinə inteqrasiya edilməsi məqsədəuyğun olardı. Bu addım hüquqi mexanizmlərin təkmilləşdirilməsinə, dövlət rüsumlarından azadolma hüququ olan şəxslərin bu hüquqlarının hansısa arayışla təsdiq edilməsi mexanizmlərinin aradan qaldırılmasına və vətəndaşlar üçün prosedurların operativ və şəffaf icrasının təmin edilməsinə xidmət edər.

Diqqətinizə görə təşəkkür edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Hörmətli həmkarlar, daha çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsinə münasibət bildirməyinizi xahiş edirəm. Buyurun, səsə qoyuram.

| **Səsvermənin nəticələri** | (saat 12.20 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Növbəti məsələmiz Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Azər müəllim, yenə də sizin komitənizdə – İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Buyurun, məlumat verin.

**Azər Əmiraslanov.** Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Birinci oxunuşda təqdim edilən qanun layihəsi vergi rezidentliyinin müəyyən olunması üçün Vergi Məcəlləsində müvafiq dəyişikliyin edilməsini nəzərdə tutur.

Azərbaycan maliyyə hesabları barədə məlumatların avtomatik mübadiləsi haqqında səlahiyyətli orqanlar arasında çoxtərəfli razılaşmaya qoşulmuşdur. Bununla ölkəmiz ümumi hesabatlıq standartını tətbiq etmək öhdəliyini üzərinə götürmüşdür. Standart qeyri-rezidentlərin Azərbaycan Respublikası ərazisində həyata keçirdikləri maliyyə əməliyyatları barədə məlumatların bu dövlətlərin səlahiyyətli orqanlarına verilməsi hədləri və qaydasında öz əksini tapmışdır. Qaydalara əsasən maliyyə institutu tərəfindən müştərilər üçün hesab yalnız müştərinin müvafiq məlumat və sənədləri təqdim etdiyi halda açıla bilər. Maliyyə institutları müştərilər üçün hesab açdıqda onlardan mütləq qaydada müvafiq anketin doldurulmasını tələb edir. Həmin anketdə şəxs öz identifikasiya məlumatını və rezident hesab olunduğu ölkəni özü qeyd etməlidir. Yəni hesab açarkən şəxslərdən məlumat və sənəd toplamaq öhdəliyi maliyyə institutlarının üzərinə qoyul-

muşdur. Maliyyə institutu vergi rezidentliyi xarici ölkə olan şəxslərin məlumatlarını Vergi Məcəlləsinə uyğun olaraq, Dövlət Vergi Xidmətinə təqdim edir. Dövlət Vergi Xidməti isə həmin məlumatları xarici ölkələrlə mübadilə edir.

Qlobal Forum tərəfindən Azərbaycanda standartların tətbiqi yoxlanılmış və nəticədə müəyyən edilmişdir ki, qanunvericilikdə şəxsin yuxarıda göstərilən məlumat və sənədləri təqdim etmək öhdəliyi, dəyişiklik baş verərsə, xəbər vermə müddəti və yanlış məlumat verdikdə məsuliyyət müəyyən edilməmişdir. Bu məlumat və sənədlər maliyyə institutu tərəfindən şəxsin vergi rezidentliyinin müəyyən olunması üçün zəruridir. Qeyd edək ki, sözügedən tələblərin pozulmasına görə məsuliyyətin İnzibati Xətalar Məcəlləsi ilə müəyyən edilməsi də nəzərdə tutulur.

Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsinin qəbul edilməsi Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq sazişlər üzrə üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsi, davam edən qiymətləndirmə prosesi çərçivəsində yüksək reytinqin əldə olunması, eyni zamanda, daxili qanunvericiliyin beynəlxalq standartların tələblərinə uyğunlaşdırılması üçün şərait yaradacaqdır. Qeyd edilənləri nəzərə alaraq, qanun layihəsinin birinci oxunuşda qəbul edilməsi məqsədəuyğun hesab olunur.

Sağ olun.

**Sədrlik edən.** Sağ olun, Azər müəllim.

Hörmətli həmkarlar, çıxış etmək istəyən yoxdur. Qanun layihəsini birinci oxunuşda səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.23 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Bizim növbəti məsələmiz Vergi Məcəlləsində, “Sosial sığorta haqqında” və “Dövlət qulluğu haqqında” qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Əli Hüseynliyə söz verirəm. Əli müəllim, buyurun.

**Əli Hüseynli,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.*

Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli deputat həmkarlar, bu kiçik qanun layihəsi dövlət qulluqçuları üçün çox əhəmiyyətlidir.

Hörmətli Sahibə xanım, onu da xüsusi vurğulamaq istəyirəm ki, hörmətli Samir müəllimin sədrliyi ilə Dövlət Qulluğunu İdarəetmə Şurasının fəaliyyətini çox yüksək qiymətləndiririk. Bizim parlament üzvləri də həmin şurada təmsil olunur və hazırda orada katiblik yaradılıb. Biz son illər “Dövlət qulluğu haqqında” Qanunda edilən çox mütərəqqi dəyişiklikləri müşahidə edirik. Bu qanun layihəsi də məhz belə mütərəqqi layihələrdən biridir. Məqsəd dövlət qulluqçularının dövlət qulluğuna xitam verilərkən onların sosial, maddi təminatını daha da gücləndirməkdən ibarətdir.

Birincisi, onu qeyd etmək istəyirəm ki, pensiya yaşına çatmış dövlət qulluqçuları, fərqi yoxdur, öz arzusu ilə və

yaxud son yaş həddinə çatırsa, belə halda onlara birdəfəlik haqqın verilməsi mexanizmi dəqiqləşdirilib. Bu, həm də dövlət qulluqçularının müəyyən mənada pensiyaya getmələrini də təşviq edir, yəni xidməti göstəriblər, sonra bu cür təminatlar da onları gözləyir.

İkinci vacib məsələ, dövlət qulluqçuları vəfat etmiş olarsa, yaxud məhkəmə qaydasında hansı isə formada xəbərsiz itkin düşmüş hesab edilibsə, belə halda onların vərəsələrinə də müavinətin ödənilməsi məsələsi bu qanunla öz əksini tapmış olur.

Nəhayət, dövlət qulluqçuları əgər həqiqi hərbi xidmətə və yaxud alternativ xidmətə çağırılırlarsa, onlara həm müavinət ödənilir, həm də onların, – bu qanunda nəzərdə tutulub, – iş yerləri qorunub saxlanılır.

Beləliklə, bu layihə, bütövlükdə, dövlət qulluğunun daha da effektiv həyata keçirilməsinə, pensiya təminatının və sosial məsələlərin çox uğurla təmin olunmasına gətirib çıxaracaqdır. Bu qanunla yanaşı, adıçəkilən layihələrə də uyğunlaşdırma xarakterli əlavələr və düzəlişlər təklif edilmişdir.

Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim.

Hörmətli həmkarlar, qanun layihəsinə daha iki komitədə baxılıb. Birinci komitə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsidir. Azər müəllim, buyurun, komitənin rəyini bildirin.

**Azər Əmiraslanov**. Hörmətli xanım sədr, hörmətli həmkarlar, müzakirəyə təqdim edilən qanun layihəsi haqqında hörmətli həmkarım Əli müəllim ətraflı məlumat verdi. Vergi Məcəlləsində edilən dəyişiklik uyğunlaşdırma xarakteri daşıyır. Bütövlükdə, dövlət qulluqçularının sosial müdafiəsinin gücləndirilməsinə və bu sahədə hüquqi

tənzimləmələrin daha dəqiq və effektiv tətbiqinə yönələn bu qanun layihəsinə komitəmizin rəyi müsbətdir və bu layihənin birinci oxunuşda qəbul edilməsini məqsədəuyğun hesab edirik.

Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Azər müəllim.

İkinci komitə Əmək və sosial siyasət komitəsidir və bu gün komitənin rəyini komitənin üzvü hörmətli Soltan Məmmədov bildirəcək.

**Soltan Məmmədov,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin üzvü.*

Hörmətli xanım sədr, hörmətli deputat həmkarlar. 3 qanunda dəyişiklikləri nəzərdə tutan qanun layihəsi barədə məndən əvvəl Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri hörmətli Əli müəllim Hüseynli və İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri hörmətli Azər müəllim Əmiraslanov ətraflı məlumat verərək müzakirənizə təqdim olunan sənədin yeni normalarının əsas məqamlarını diqqətə çatdırdılar.

Bu layihə Hüquq siyasəti və dövlət quruculuğu, habelə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitələri ilə yanaşı, Əmək və sosial siyasət komitəsinin 10 dekabr tarixli iclasında da geniş müzakirə olunmuş və bugünkü plenar iclasa tövsiyə edilmişdir. Belə ki, qanun layihəsində sözügedən komitənin qanunvericilik sahəsinə aid olan "Sosial sığorta haqqında" Qanunun 15-ci maddəsində dəyişikliyin təsbit edilməsi də nəzərdə tutulmuşdur. Qeyd edək ki, "Sosial sığorta haqqında" Qanunda ediləcək dəyişiklik məhz məcburi dövlət sosial sığorta haqqı hesablanmayan gəlir növlərinin siyahısının dəqiqləşdirilməsi məqsədi daşıyır və Vergi Məcəlləsində təklif olunan dəyişikliklə eyni xarakterlidir. Qanun layihəsini

birinci oxunuşda dəstəkləməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun.

Müzakirəyə yazılan yoxdur və mən qanun layihəsini səsə qoyuram. Buyurun, qanun layihəsinə birinci oxunuşda münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.28 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, biz sonuncu məsələyə gəldik. 10-cu məsələdir və bu məsələ Əmək Məcəlləsində və digər 3 məcəllədə, "Həmkarlar ittifaqları haqqında" və daha 13 qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Qeyd edim ki, məsələ ilə əlaqədar əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini hörmətli Rəşad Mustafayev və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Əmək siyasəti şöbəsinin müdiri hörmətli Fuad Heydərov iclasımızda iştirak edirlər. Mən qonaqlarımızı bir daha salamlayıram.

Hörmətli deputatlar, layihəyə Əmək və sosial siyasət komitəsində baxılmışdır. Layihə haqqında komitənin adından yenə də, Soltan müəllim, Siz məlumat verəcəksiniz. Buyurun, məlumatınızı dinləyirik.

**Soltan Məmmədov.** Hörmətli xanım sədr, dəyərli deputat həmkarlarım. Son illər ərzində ölkəmizdə işçilərin

sosial müdafiəsinin gücləndirilməsi istiqamətində sistemli və məqsədyönlü tədbirlər həyata keçirilməkdədir. Bu proseslərin məntiqi davamı kimi, sözügedən tədbirlər çərçivəsində beynəlxalq əmək normalarının, yerli əmək normalarının spesifikası nəzərə alınmaqla, milli qanunvericiliyin implementasiyasına, bu sahədə elektron sistemlərin tətbiqi ilə əlaqədar yeni qaydaların müəyyən edilməsinə, eləcə də ötən dövr ərzində əmək qanunvericiliyində aşkar edilmiş boşluqların aradan qaldırılmasına zərurət yaranır.

Möhtərəm cənab Prezident tərəfindən qanunvericilik təşəbbüsü hüququ qaydasında Milli Məclisə ünvanlanmış və bugünkü plenar iclasda müzakirənizə təqdim edilmiş qanun layihəsi də məhz qeyd etdiyimiz sferada hüquqi əsasların müəyyən edilməsi və müvafiq hüquqi normaların təkmilləşdirilməsi məqsədi ilə hazırlanmışdır.

Layihə 18 qanun üzrə 178 maddədə 457 adda dəyişikliyi ehtiva edir. Təbii ki, təklif olunan dəyişikliklərin mütləq əksəriyyəti, dəqiq desək, 154 maddə üzrə 420 dəyişiklik bilavasitə Əmək Məcəlləsinə aiddir.

Layihədə sözügedən digər 17 qanunda təsbit olunması nəzərdə tutulan dəyişikliklər Əmək Məcəlləsində nəzərdə tutulmuş dəyişikliklər çərçivəsində hazırlanmışdır və uyğunlaşdırma və dəqiqləşdirmə xarakterlidir.

Dəyişikliklərin kəmiyyətini nəzərə alaraq, onları sistemli şəkildə 3 əsas istiqamət üzrə Əmək Məcəlləsi üzərindən təqdim etmək istərdim.

Birinci istiqamət məcəllədə mahiyyəti üzrə təkmilləşdirmə məqsədi daşıyan, habelə əmək münasibətlərində çevik və sosial yönümlü hüquqi tənzimləmələrin tətbiqini, həmçinin müasir iş şəraitinə uyğun olaraq, yeni anlayışların qanunvericiliyə gətirilməsini hədəfləyən dəyişiklikləri ehtiva edir.

İkinci istiqamət üzrə Beynəlxalq Əmək Təşkilatının konvensiyalarına və beynəlxalq təcrübəyə uyğun olaraq, milli qanunvericiliyin təkmilləşdirilməsi məqsədi ilə edilən dəyişikliklər təsbit olunur.

Üçüncü istiqamət isə "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələblərindən irəli gələrək uyğunlaşdırma çərçivəsində edilən dəyişiklikləri nəzərdə tutur.

Qeyd edilən istiqamətlər üzrə yalnız mahiyyəti üzrə edilən əsas dəyişiklikləri diqqətinizə çatdırıram.

Layihədə Beynəlxalq Əmək Təşkilatının "Kişi və qadın işçilər – ailə vəzifələri olan işçilər üçün bərabər imkanlar və bərabər rəftar haqqında" 156 nömrəli Konvensiyasının tələblərindən irəli gələrək Əmək Məcəlləsinin 3-cü maddəsində anlayışlar sırasına yeni "ailə vəzifələri olan işçi" anlayışı gətirilir.

"Minimum əməkhaqqı" anlayışının Beynəlxalq Əmək Təşkilatının 131 nömrəli Konvensiyasının 3-cü maddəsinə uyğunlaşdırılması məqsədi ilə yeni redaksiyada verilir.

Məcəllədə işəgötürənin işçini xidməti tapşırıqların yerinə yetirilməsi zərurəti ilə əlaqədar ezamiyyətə göndərmək hüququ, eləcə də işçinin belə hallarda ezamiyyə xərclərini almaq hüququ öz əksini tapmamışdır. Göstərilənlərə əsasən, məcəllənin 3-cü maddəsində istifadə edilən anlayışlar sırasına "ezamiyyət" anlayışının təsbit olunması təklif edilir.

Prioritet istiqamət olaraq işçilərin əmək funksiyalarının distant iş formasında yerinə yetirilməsi sahəsi üzrə qanunvericiliyin formalaşdırılmasını müəyyən etmək, bu xüsusda işçilərin distant iş formasında əmək funksiyasının yerinə yetirilməsinin hüquqi əsasının yaradılmasını təmin etmək məqsədi ilə məcəllənin 3-cü maddəsinə yeni

“məsafədən (distant) iş” anlayışının gətirilməsi təklif olunur.

Əmək Məcəlləsinin 4-cü maddəsinin 3-cü hissəsində çalışmanın yuxarı yaş həddinin dövlət büdcəsindən maliyyələşən elmi tədqiqat və ali təhsil müəssisələrinə şamil edilməməsi təsbit edilmişdir. Təcrübədə bu müəssisələr tərəfindən qeyd olunan maddədə müəyyən edilmiş müəssisənin bütün işçilərinə, o cümlədən əsas fəaliyyət sahəsi ilə əlaqəsi olmayan inzibati və texniki xidmət heyəti işçilərinə çalışmanın yaş həddinin şamil edilməməsinin heç bir əhəmiyyət daşımadığı və bu maddənin məqsədlərinə xidmət etmədiyi barədə məsələ qaldırılır. Ölkəmizdə məşğulluğun artırılması və gənc kadrların işlə təmin edilməsi məqsədi ilə 4-cü maddənin 3-cü hissəsində edilən dəyişiklik də elmi tədqiqat və ali təhsil müəssisələrinin məhz elmi və pedaqoji işçilərinə şamil edilməsini nəzərdə tutur.

Əmək Məcəlləsinin 10-1-ci maddəsinin işləmə mexanizmini tənzimləmək, təcrübədə yaranan anlaşılmazlıqları aradan qaldırmaq məqsədi ilə çalışma müddətinin uzadılmasının işəgötürənin əmri (sərəncamı) ilə rəsmiləşdirilməsi ilə bağlı tənzimləyici norma əlavə edilmişdir.

Məcəllənin 16-cı maddəsinin 1-ci hissəsində “ictimai-sosial mənşəyinə” ifadəsi işlədilir ki, bu da Konstitusiyanın 25-ci maddəsinin III hissəsində “mənşəyindən” ifadəsini məhdudlaşdırır. Ona görə də məcəllənin bu maddəsində “ictimai-sosial” sözləri çıxarılır. Digər dəyişikliyə əsasən Konstitusiyanın 25-ci maddəsində “milliyyətindən” sözünün “etnik mənsubiyyətindən” sözləri ilə əvəz edilməsi nəzərə alınaraq, məcəllənin 16-cı maddəsinin 1-ci hissəsində analoji dəyişiklik edilir.

“Normativ hüquqi aktlar haqqında” Konstitusiya

Qanununun 56.0.2-ci maddəsinə əsasən Əmək Məcəlləsinin bir çox maddəsində mətn boyu “əmək müqaviləsinin ləğv edilməsi” və ya “əmək müqaviləsinə xitam verilməsi” ifadələri eyniləşdirilir.

Azərbaycan Respublikasında Sosial və iqtisadi məsələlər üzrə üçtərəfli komissiyanın təsis edilməsinin hüquqi əsaslarını gücləndirmək məqsədi ilə Əmək Məcəlləsinə tərəflərin hüquq bərabərliyi prinsipi əsasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun), həmkarlar ittifaqlarının və işəgötürənlərin ümumrespublika birliklərinin birgə qərarı ilə bərabər sayda səlahiyyətli nümayəndələrindən ibarət daimi fəaliyyət göstərən əmək və sosial məsələlər üzrə üçtərəfli komissiya ilə bağlı yeni 41-1-ci maddə əlavə olunur.

Məcəllənin 47-ci maddəsinə təhsil alanların istehsalat təlimi və təcrübəsi keçdiyi hallarda müddətli əmək müqaviləsinin bağlanılmasını müəyyən edən norma əlavə edilir.

Sınaq müddətini keçmədiyinə görə işəgötürənin işçini işdən azad edə bilməsi ilə bağlı məcəllənin 70-ci maddəsinə düzəliş edilir.

Əmək Məcəlləsinin 69-cu və 73-cü maddələrinin adından görünür ki, bu maddələr əmək müqaviləsinə xitam verilməsinin əsaslarını deyil, qaydalarını özündə ehtiva edir. Qeyd edilən qarışıqlıq, yəni məcəllədə maddələrin həm əmək müqaviləsinə xitam verilməsinin əsası, həm də qaydası kimi göstərilməsi təcrübədə çoxlu problemlər yaradır, məhkəmə çəkişmələrinə səbəb olur. Yaranan problemlərin aradan qaldırılması məqsədi ilə bu maddələrin adından “qayda” sözü çıxarılır.

Əmək Məcəlləsinin 70-ci maddəsinin “a” bəndinə əsasən müəssisə ləğv edildikdə işəgötürən tərəfindən işçinin

əmək müqaviləsinə xitam verilir. Praktikada fiziki şəxs olan işəgötürənin fəaliyyətinə xitam verildikdə işçilərlə bağlanılan əmək müqaviləsinə xitam verilməsi ilə bağlı çoxsaylı suallar yaranır. Bu halın tənzimlənməsi məqsədi ilə 70-ci maddənin "a" bəndi təkmilləşdirilərək müəssisənin ləğv edilməsi və ya fiziki şəxs olan işəgötürənin fəaliyyətinə xitam verilməsi işəgötürən tərəfindən işçinin əmək müqaviləsinə xitam verilməsinin əsası kimi verilmişdir.

"Hərbi vəzifə və hərbi xidmət haqqında" Qanunun 50.1-ci maddəsinə əsasən "həqiqi hərbi xidmətə çağırılmış vətəndaşlara mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq iş (təhsil) yerində orta əməkhaqqının ən azı üç misli məbləğində müavinət ödənilir". Uyğunsuzluğun aradan qaldırılması məqsədi ilə məcəllənin 77-ci maddəsinin 7-ci hissəsi dəqiqləşdirilərək müavinətin orta əməkhaqqının azı 3 misli məbləğində verilməsi təmin edilmişdir.

Bayram günləri ilə bağlı 105-ci maddəyə "Dövlət Suverenliyi Günü (sentyabrın 20-si)" sözləri əlavə edilir. Qeyd edək ki, bu bayram günü dövlət başçısının 2024-cü il 19 sentyabr tarixli Sərəncamı ilə təsis edilmişdir.

İşçinin məzuniyyətdə olduğu müddətdə aldığı əməkhaqqının sonuncu əməkhaqqından az olmamaqla ödənilməsi ilə bağlı Əmək Məcəlləsinin 111-ci maddəsinə tənzimləmə gətirilir.

120-ci maddə yeni redaksiyada verilərək məzuniyyət hüququ 46 təqvim günü olan xüsusi xidmətləri olan işçilərin dairəsi yenilənir.

Gender bərabərliyinin təmin edilməsi məqsədi ilə uşağın doğulması ilə əlaqədar kişilərə tibb müəssisəsinin arayışı əsasında doğuşdan əvvəl və doğuşdan sonra olan

dövrdə cəmi 14 təqvim günü müddətində ödənişli məzuniyyət verilməsinin nəzərdə tutulması ilə bağlı 125-ci maddənin 4-cü hissəsində norma müəyyən edilmişdir.

Təcrübədə yaranan uyğunsuzluqların aradan qaldırılması məqsədi ilə məcəllənin 177-ci maddəsində həmin maddənin "2-ci və 3-cü hissələrində göstərilən hallarda hesablanmış bir günlük əməkhaqqı qismən ödənişli sosial məzuniyyətdə və işəgötürənin təşəbbüsü ilə ödənişsiz məzuniyyətdə olması, eləcə də işçinin təqsiri olmadan boşdayanma səbəblərindən işçinin sonuncu bir günlük əməkhaqqından az olduğu halda sonuncu bir günlük əməkhaqqı"nın tətbiq edilməsi ilə bağlı dəyişiklik edilmişdir.

Əməyin mühafizəsi sahəsində qanunvericiliyin təkmilləşdirilməsi məqsədi ilə 223-cü maddəyə yeni hissə əlavə edilmişdir. Dəyişikliyə əsasən fiziki şəxs olan işəgötürənlərin yaratdıqları, işçilərin sayı 50 nəfərdən çox olan iş yerlərində əməyin mühafizəsi üzrə mühəndis vəzifəsi təsis edilir. İşçilərin sayı 50 nəfərdən az olduqda əməyin mühafizəsi işinin təşkili işçinin razılığı ilə və əmək müqaviləsinə müvafiq dəyişiklik edilməklə əməyin mühafizəsi üzrə biliyi olan işçilərdən birinin əmək funksiyasına daxil edilir. Bu, mümkün olmadıqda isə işəgötürən tərəfindən əməyin mühafizəsi üzrə mütəxəssis vəzifəsi təsis edilir.

Hörmətli xanım sədr, dəyərli həmkarlarım. Təqdim etdiyim bu irihəcmli və mütərəqqi müddəalarla zəngin olan hüquqi sənəd Əmək və sosial siyasət komitəsinin 10 dekabr tarixli geniş iclasında aidiyyəti qurumların rəhbər təmsilçilərinin iştirakı ilə ətraflı şəkildə müzakirə edilmiş və yekdilliklə Milli Məclisin plenar iclasına tövsiyə edilmişdir.

Qanun layihəsini birinci oxunuşda dəstəkləməyinizi xahiş edirəm.

Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Hörmətli həmkarlar, qanun layihəsinə daha 6 komitədə baxılmışdır. Mən indi komitələrin sədrlərinə, ya da təmsilçilərinə bir-bir söz verəcəyəm.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin rəyini, Əli müəllim, xahiş edirəm, Siz bildirin.

**Əli Hüseynli.** Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli həmkarım Soltan müəllim çox geniş, əsaslandırılmış formada məruzə etdi. Biz məruzədən bir daha əmin olduq ki, qanun layihəsinin irəli sürülməsinin 3 əsas istiqamətdə zərurəti mövcuddur. Onu qeyd etmək istəyirəm ki, komitəmizin profilinə aid olaraq Cinayət Məcəlləsində, Cəzaların İcrası Məcəlləsində edilən uyğunlaşdırma xarakterli dəyişikliklərlə bağlı rəyimiz müsbətdir. Bütövlükdə isə, komitə olaraq bu layihənin beynəlxalq əmək normaları nəzərə alınmaqla, təkmilləşdirilməsi ilə bağlı irəli sürülmüş müddəalarını xüsusi olaraq dəstəkləyirik.

Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim.

Azər müəllim, xahiş edirəm, Siz İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin rəyini bildirin. Buyurun.

**Azər Əmiraslanov**. Hörmətli xanım sədr, hörmətli həmkarlar, qanun layihəsi barədə hörmətli həmkarımız Soltan Məmmədov ətraflı, geniş məlumat verdi. Komitəmizin profili üzrə Vergi Məcəlləsində və "Hesablama Palatası haqqında" Qanunda edilən dəyişikliklər uyğunlaşdırma xarakterlidir. Həmçinin "Yaşayış minimumu haqqında" Qanunda təklif olunan dəyişikliklər də Əmək Məcəlləsində minimum əməkhaqqı anlayışının yeni redaksiyada verilməsindən irəli gəlir və normativ hüquqi

aktlar arasında uyğunluğun təmin edilməsi zərurəti ilə əlaqədardır.

Belə ki, Əmək Məcəlləsinin 155-ci maddəsinin 2-ci hissəsinə təklif olunan dəyişiklik minimum əməkhaqqı anlayışının "Yaşayış minimumu haqqında" Qanunda müəyyən edilmiş yanaşma ilə uzlaşdırılmasını nəzərdə tutur. Beləliklə, minimum əməkhaqqının müəyyən edilməsi zamanı vahid hüquqi əsas formalaşdırılır. Yeni redaksiyada minimum əməkhaqqının formalaşmasında ölkənin iqtisadi inkişaf səviyyəsi, məhsuldarlıq, orta aylıq əməkhaqqı, pul vahidinin alıcılıq qabiliyyəti, sosial müavinətlər, yaşayış minimumu və məşğulluq göstəriciləri kimi amillərin nəzərə alınması təsbit olunur.

Ümumilikdə, qeyd olunmalıdır ki, təklif olunan dəyişikliklər bu sahədə əmək münasibətlərinin çevik hüquqi tənzimlənməsinə və milli qanunvericiliyin beynəlxalq təcrübəyə uyğun olaraq, təkmilləşdirilməsinə şərait yaradır.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin qanun layihəsinə rəyi müsbətdir və onun birinci oxunuşda qəbulunu məqsədəuyğun hesab edirik.

Sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Bu məsələyə Regional məsələlər komitəsində də baxılıb. Komitənin sədri hörmətli Siyavuş müəllim Novruzova söz verirəm. Siyavuş müəllim, buyurun.

**Siyavuş Novruzov,** *Milli Məclisin Regional məsələlər komitəsinin sədri.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar. Bizim profil üzrə bələdiyyələrin statusu haqqında qanunvericilikdə dəyişiklik nəzərdə tutulub. Yəni hörmətli Soltan müəllim ətraflı şəkildə məlumat verdi və bizim qanunvericilikdə, demək olar ki, bu müddəalar bələdiyyə

işçilərinə, bələdiyyə qulluqçularına şamil olunur. O baxımdan da komitənin rəyi müsbətdir, qəbul olunmasını xahiş edirik.

**Sədrlik edən.** Sağ olun, Siyavuş müəllim.

Ailə, qadın və uşaq məsələləri komitəsində də baxılıb. Hicran xanım, buyurun, komitənin sədri kimi rəy bildirin.

**Hicran Hüseynova,** *Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri.*

Hörmətli xanım sədr, hörmətli həmkarlar, media nümayəndələri. Gördüyünüz kimi, qanun layihəsi bir çox sahələri əhatə edir. Sənəddə çox mühüm əlavə və dəyişikliklər olunur. Bütövlükdə, bu layihə hər bir vətəndaşın əmək hüquqlarının qorunmasına xidmət edir.

Hörmətli Soltan müəllim, hörmətli həmkarlarım bir çox məsələləri qeyd etdilər, ətraflı məlumat verdilər. Mən isə ailə, qadın və uşaq məsələləri ilə bağlı fikirlərimi səsləndirmək istərdim. Qeyd edim ki, sənəddə dəfələrlə səsləndirdiyimiz təkliflər də öz əksini tapıb. Belə ki, təklif olunan layihədə "ailə vəzifələri olan işçi", "minimum əməkhaqqı", "ezamiyyət" və "məsafədən (distant) iş" anlayışları və bundan irəli gələn digər hüquqi normalar öz əksini tapmışdır. Layihədə Beynəlxalq Əmək Təşkilatının 156 və 183 nömrəli konvensiyaları, 165 nömrəli Tövsiyəsi nəzərə alınmaqla, bir çox əlavə və dəyişikliklər edilmişdir.

"Ailə bizim cəmiyyətimizin əsas sütunudur" – möhtərəm Prezident cənab İlham Əliyevin bu fikirləri Azərbaycan ailə institutunun nə qədər önəmli olduğunu bir daha vurğulayır. Bu gün müzakirə etdiyimiz qanun layihəsi ailə institutunun möhkəmləndirilməsi, vətəndaşın əmək hüququnun qorunması, ailənin sosial müdafiəsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Zaman dəyişir və biz dövrün çağırışlarına adekvat

yanaşmalıyıq. Əmək münasibətlərində çevik və sosial yönümlü hüquqi normaların yaranması artıq bir zərurət idi. Məqsəd nədir? İnsanlar üçün layiqli əmək şəraiti yaradılsın, onlar heç bir halda ayrı-seçkiliyə məruz qalmasın, əmək hüquqları pozulmasın, bütün vəziyyətlərdə özlərini inkişaf etdirə bilsinlər. Vətəndaşın iş və ya ailə həyatı balanslı şəkildə davam etsin.

Milli qanunvericilikdə uşağın dünyaya gəlməsi ilə bağlı atalara 14 təqvim günü müddətində ödənişsiz məzuniyyət hüququ verilir. Lakin biz görürük ki, təcrübədə heç bir ata bu hüquqdan istifadə etmir. Çünki ödənişsiz məzuniyyət ailə büdcəsinə əlavə təzyiq yaradır. Ata yalnız ailənin, uşağın maddi ehtiyaclarını deyil, həm də mənəvi, psixoloji, sosial-mədəni ehtiyaclarını qarşılamalıdır. Təcrübə göstərir ki, belə bir məzuniyyətin tətbiqi və ataların uşağın qayğısına qalması, təlim-tərbiyəsində iştirakı həm ailədaxili münasibətlərə, həm də uşağın şəxsiyyət kimi formalaşmasına müsbət təsir göstərir.

Analığın müdafiəsinin gücləndirilməsi, hamilə qadınların analıq məzuniyyətinin yenidən hesablanması ilə bağlı əlavə və dəyişikliklər də müsbət bir haldır. Ailə məsuliyyətinin, ailə vəzifələrinin ədalətli bölüşdürülməsi həm qadınların, həm də kişilərin potensialını tam istifadə etməsi üçün maneələrin aradan qaldırılması deməkdir.

Qanun layihəsinə bizim komitədə baxılmışdır və Milli Məclisin müzakirəsinə tövsiyə edilmişdir.

Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Səhiyyə komitəsinin rəyini bildirmək üçün komitə sədrinin müavini hörmətli Rəşad Mahmudova söz verirəm. Rəşad müəllim, buyurun, komitənin rəyini bildirin.

**Rəşad Mahmudov,** *Milli Məclisin Səhiyyə komitəsi sədrinin müavini.*

Hörmətli xanım sədr, hörmətli həmkarlar, komitəmizin profilinə aid olan "Azərbaycan Respublikasında vərəmlə mübarizə haqqında" Qanunun 14-cü maddəsində və eləcə də "Narkoloji xidmət və nəzarət haqqında" Qanunun 10-cu maddəsində təklif edilən dəyişikliklər Əmək Məcəlləsində edilmiş dəyişikliklərə uyğunlaşdırma xarakteri daşıyır.

Qanun layihəsi komitəmizdə müzakirə edilmiş, bütün millət vəkilləri tərəfindən dəstəklənmiş və layihə ilə bağlı hər hansı bir irad və təklif irəli sürülməmişdir. Bütün bunları nəzərə alaraq, layihəyə müsbət rəy verir və hörmətli həmkarlarımızı qanun layihəsinin qəbuluna səs verməyə dəvət edirik.

**Sədrlik edən.** Çox sağ olun, Rəşad müəllim.

Sonuncu komitə Gənclər və idman komitəsidir. Komitənin rəyini bildirmək üçün komitənin sədri hörmətli Şahin İsmayılova söz verirəm. Şahin müəllim, buyurun.

**Şahin İsmayılov,** *Milli Məclisin Gənclər və idman komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, əziz həmkarlar. Təklif olunan dəyişiklik uyğunlaşdırma xarakteri daşıyır. Komitənin rəyi müsbətdir, səsə qoymağınızı xahiş edirik.

Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun.

Müzakirəyə keçirik, yazılanlar var. Qüdrət Həsənquliyev. Buyurun.

**Qüdrət Həsənquliyev.** Çox sağ olun. Hörmətli sədr, həmkarlar, media nümayəndələri. Mən Əmək Məcəlləsində təklif olunan dəyişikliklərlə bağlı fikrimi bildirmək istəyirəm.

İlk öncə əhatəli və geniş çıxışına görə qanun layihəsini

təqdim edən Soltan müəllimə və layihəni hazırlayan işçi qrupa öz minnətdarlığımı bildirirəm. Mütərəqqi dəyişikliklərdir və mən bu dəyişiklikləri müdafiə edəcəyəm. Münasibət bildirmək istədiyim məsələ işəgötürənlə həmkarlar ittifaqları təşkilatları arasındakı münasibətlərlə əlaqədardır.

Bu gün Həmkarlar İttifaqları Konfederasiyasının VIII Qurultayı keçirilir, ölkə Prezidenti də qurultay iştirakçılarına öz təbrikini göndərib. Mən də təbriklərə qoşuluram və onlara fəaliyyətlərində uğurlar arzulayıram. Amma çox təəssüf ki, bu gün həmkarlar ittifaqları təşkilatları əhali arasında işçilərin hüquqlarını müdafiə edən təşkilatlardan daha çox, həmkarlar ittifaqları təşkilatlarının üzvü olan şəxslərə maddi yardım etmək, ehtiyac olduğu halda müalicə müəssisələrinə göndərişlər verməklə assosiasiya olunur.

Çox təəssüf, biz tez-tez rastlaşırıq ki, işçilərin hüquqları pozulur və həmkarlar ittifaqları onların hüquqlarının müdafiəsi istiqamətində zəruri addımları ata bilmirlər. Bir çox hallarda idarə, müəssisə və təşkilatlarda həmkarların sədrləri həmin orqanların rəhbərləri tərəfindən müəyyən olunur və çox təəssüf ki, onların tapşırığı əsasında "Fatı, qalx, Fatı, otur" prinsipi ilə fəaliyyət göstərirlər. İş o yerə çatıb ki, işçilər bir çox hallarda hətta xarici şirkətlər tərəfindən belə gecə saat 10-11-ə qədər işlədilir və onlara əməkhaqqı verilmir. Yəni onların hüquqları ciddi şəkildə pozulur. Bir çox hallarda işçilər çox asanlıqla işdən çıxarılırlar. Reallıqla barışmış işçilər isə nə həmkarlara, nə də məhkəmələrə müraciət edirlər. Bir çox hallarda işə bərpa ilə əlaqədar məhkəmə qərarları belə icra olunmur. Ona görə də həmkarlar ittifaqlarının işçilərin hüquqlarının qorunmasında fəal iştirakını təmin etmək üçün onlara

ciddi siyasi dəstək verilməli olduğunu düşünürəm və bu istiqamətdə ciddi işlər görülməlidir.

Eyni zamanda, mən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə öz minnətdarlığımı bildirirəm. Son vaxtlar mənim şəxsən ünvanladığım bütün müraciətlərə qanunla nəzərdə tutulmuş müddətdə əhatəli, yazılı formada cavablar verilir və şikayətdə göstərilən xüsusatlar əgər əsaslıdırsa, onların hüquqları bərpa olunur. Amma hesab edirəm ki, həmkarlar ittifaqlarının fəaliyyətini gücləndirmədən bu sahədə biz nöqsanları aradan qaldıra bilməyəcəyik.

Toxunmaq istədiyim ikinci məsələ isə müəssisələrdə və ya fiziki şəxs olan işəgötürənlərin yaratdıqları iş yerlərində siyasi partiyaların və dini qurumların fəaliyyətinə yol verilmir, qanunun o tələbinə də real həyatda əməl olunmur. Biz bilirik ki, burada müəssisələr deyiləndə həm də elm, təhsil müəssisələri nəzərdə tutulur. Amma elm, təhsil müəssisələrində siyasi partiyaların yerli strukturları var. Xatırlayırsınızsa, mən vaxtı ilə burada "Siyasi partiyalar haqqında" Qanun qəbul olunanda da, "Dövlət qulluğu haqqında" Qanun qəbul olunanda da söyləyirdim ki, dövlət qulluqçuları heç bir siyasi partiyanın üzvü olmamalıdırlar. Çox təəssüf ki, o zaman bu təklif qəbul olunmadı. Düzdür, "Dövlət qulluğu haqqında" Qanunda qeyd olunur ki, dövlət qulluqçusu öz vəzifələrini yerinə yetirərkən heç bir siyasi fəaliyyətlə məşğul olmamalıdır. Amma iş vaxtından sonra onların da iş yerlərində hansı isə siyasi tədbirlər keçirilməsinə hər hansı bir məhdudiyyət qoyulmur. Ona görə bu prinsip, yəni burada biz qeyd etmişik ki, siyasi partiyaların fəaliyyətinə icazə verilmir. Eyni ilə o dövlət idarə, müəssisə və təşkilatlarına, yəni dövlət orqanlarına, dövlət qulluqçularının çalışdığı yerlərə

də şamil olunmalıdır.

Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Elçin Mirzəbəyli. Buyurun.

**Elçin Mirzəbəyli**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar və media mənsubları. Mən də qanun layihəsini hazırlayan işçi qrupuna minnətdarlığımı bildirirəm. Mütərəqqi layihədir və təbii ki, vətəndaşların hüquqlarının, eyni zamanda, gender bərabərliyinin qorunmasına xidmət edən mühüm bir sənəd kimi qəbul olunmalıdır. Bununla yanaşı, bəzi məqamlara da diqqət çəkmək istəyirəm. Xüsusi ilə də Əmək Məcəlləsində dəyişikliklərlə bağlı.

Təəssüflər olsun ki, artıq təqdim olunan bu müsbət, vətəndaşların hüquqlarına xidmət edən dəyişikliklər öncəsi bəzi müəssisə və təşkilatlarda işçilərdən növbəlilik prinsipi əsasında bəzi məqamlara razılıq verdikləri üçün ərizələr istəyirlər. Onlardan birinin nüsxəsini diqqətinizə çatdırmaq istəyirəm. Vətəndaşdan tələb olunur ki, daha öncədən təsdiq edilmiş növbətçilik qrafikinə əsasən vətəndaşın təyin edildiyi növbəti iş qrafikinə uyğun, gündüz və gecə iş rejimində əməkhaqqının ortalama aylıq hesabat üzrə hesablanmasına, həmçinin gələcəkdə iş qrafikinin dəyişilməsinə etiraz etmirlər. Yəni öncədən artıq qanunvericiliyin verdiyi üstünlüklərdən vətəndaşın yararlanmaması, istifadə etməməsi üçün bu qəbildən olan addımlar atılır. Düşünürəm ki, Əmək Məcəlləsində bu məqamlar nəzərə alınmaqla yanaşı, eyni zamanda, müvafiq qanunvericilik aktlarında vətəndaşların işçi hüquqlarının, əmək hüquqlarının pozulması ilə bağlı olan məqamlarda sanksiyalar ciddi şəkildə sərtləşdirilməlidir.

Başqa bir məqam isə burada fürsətdən istifadə edib

“Sosial sığorta haqqında” və “Bələdiyyələrin statusu haqqında” qanunlarda olan dəyişikliklərə birbaşa olmasa da, müəyyən bir məqama toxunmaq istəyirəm. Bu da kənd bələdiyyələrinin müraciətləri əsasındadır. Məlum olduğu kimi, kənd bələdiyyələrinin büdcəsi, əsasən, yerli vergilərdən əldə olunur. Amma onlar qanunvericiliyə uyğun olaraq, öz işçilərinə görə Dövlət Sosial Müdafiə Fonduna mütəmadi olaraq vəsait ödəmək məcburiyyətində qalırlar. Amma kənd yerlərində, əsasən, yığımda kifayət qədər ciddi problemlər var. Bu da əməkhaqlarının vaxtında verilməməsinə zəmin yaradır. Təbii ki, bu halda Dövlət Sosial Müdafiə Fonduna da ödənişlər zamanında edilmir. Bu da cərimələrin, dəbbə pullarının üst-üstə gəlməsinə zəmin yaradır ki, mövcud kənd bələdiyyələrinin büdcələri bunun öhdəsindən gəlmək iqtidarında deyil. Düşünürəm ki, gələcəkdə də bu istiqamətdə müəyyən tənzimləyici addımların atılmasına və kənd bələdiyyələrinin vəziyyətinin xüsusi ilə nəzərə alınmasına ehtiyac var.

Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Nigar Məmmədova. Buyurun.

**Nigar Məmmədova**. Hörmətli xanım sədr, hörmətli həmkarlar və media nümayəndələri. Əmək Məcəlləsində edilən dəyişikliklər olduqca mühüm və fundamental məsələləri əhatə edir. Burada söhbət həm əməyin mühafizəsi və işçilərin sağlamlığı, həm rəqəmsal mexanizmlərin tətbiqi, həm də qadınların və analığın hüquqlarının qorunması və digər vacib yeniliklərdən gedir. Bu istiqamətlər vətəndaşların həyat keyfiyyəti baxımından xüsusi əhəmiyyət daşıyır. İlk növbədə əməyin mühafizəsi və işçilərin sağlamlığı məsələsinə toxunmaq istəyirdim.

Müasir dövrdə əmək yalnız səmərəli deyil, eyni zamanda,

təhlükəsiz olmalıdır. İnsan həyatının və sağlamlığının qorunması dövlət siyasətinin prioritetidir. Təklif olunan dəyişikliklər məhz risklərin qarşısının alınmasına, profilaktik yanaşmanın gücləndirilməsinə xidmət edir. Bu baxımdan əməyin mühafizəsi üzrə mühəndisin tətbiqi xüsusi əhəmiyyət kəsb edir. Bu, əmək şəraitinə peşəkar nəzarətin təmin edilməsi, təhlükəsizlik normalarına əməl olunması və mümkün pozuntuların vaxtında aşkar edilməsi deməkdir. Belə bir mütəxəssisin mövcudluğu istehsalat xəsarətlərinin və peşə xəstəliklərinin azalmasına, nəticə etibarı ilə isə işçilərin sağlamlığının real qorunmasına xidmət edəcək.

İkinci mühüm istiqamət isə rəqəmsallaşmadır. Əmək və inzibati proseslərdə rəqəmsal alətlərin tətbiqi şəffaflığın artırılmasına, prosedurların sadələşdirilməsinə və artıq bürokratik maneələrin aradan qaldırılmasına imkan verir. Rəqəmsallaşma işçilərin hüquqlarının daha effektiv qorunmasına, işəgötürən üçün aydın qaydaların formalaşmasına və dövlət idarəçiliyinin müasir tələblərə uyğun qurulmasına xidmət edir.

Xüsusi olaraq qadınların və analığın hüquqlarının qorunmasına dair müddəaları vurğulamaq istəyirəm. Qanun layihəsi hamilə və azyaşlı uşağı olan qadınların öz müraciətləri əsasında yüngülləşdirilmiş iş rejimindən istifadə etmək hüququnu təsbit edir. Bu, qadınlara peşə fəaliyyətini ailə və uşağa qayğı ilə uzlaşdırma imkanı yaradır və onların əmək hüquqlarının qorunmasını təmin edir. Eyni zamanda, 3 yaşınadək uşağı olan qadının işdən azad edilməsinin qadağan olunması və bu qadağanın pozulmasına görə işəgötürənin məsuliyyət daşıması son dərəcədə prinsipial bir normadır. Bu, qadına həyatının ən həssas dövründə sabitlik və sosial müdafiə hissi verir. Əslində, bu dəyişikliklər cəmiyyətə açıq bir mesaj verir. Analıq sosial risk mənbəyi deyil, qadını

qorumaqla biz ailəni, uşağı və cəmiyyətin gələcəyini qoruyuruq. Ümumiyyətlə, təklif olunan bütün dəyişikliklər insan mərkəzli, sosial yönümlü və müasir əmək münasibətləri sisteminin formalaşmasına xidmət edir. Hesab edirəm, bu qanun layihəsi dəstəyə layiqdir.

Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Fatma Yıldırım. Buyurun.

**Fatma Yıldırım.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Bugünkü müzakirəyə çıxarılan Əmək Məcəlləsində dəyişikliklər arasında məsafədən işləmə, yəni distant iş anlayışının qanunvericilikdə öz əksini tapması son dərəcədə vacib və vaxtında atılmış bir addımdır.

Bu məqamda, xanım sədr, qeyd etmək istərdim ki, 2025-ci il iyunun 11-də Elm və təhsil komitəsinin iclasında da bu məsələ müzakirəyə çıxarılmışdı. Qanunvericilik təşəbbüsü səviyyəsinə yüksəlməsini təqdirəlayiq bir hal kimi qiymətləndirirəm.

Əmək münasibətlərinin çevikləşməsi və müasir dövrün reallıqlarına uyğunlaşdırılması artıq zərurətə çevrilib. Biz pandemiya dövründə gördük ki, bir çox sahələrdə işin məsafədən təşkili mümkündür və bu, həm məhsuldarlığa, həm də işçi məmnuniyyətinə müsbət təsir göstərir. Xüsusi ilə texnologiyanın sürətli inkişafı və rəqəmsal transformasiyanın dərinləşməsi fonunda distant iş modeli artıq alternativ deyil, əsas iş formalarından birinə çevrilməkdədir.

Bu yanaşma, eyni zamanda, sosial inklüzivliyi də təşviq edir. Qadınların, gənclərin, eləcə də fiziki məhdudiyyətli şəxslərin əmək bazarına qoşulması üçün yeni imkanlar yaradır. Regionlarda yaşayan insanların paytaxtda yerləşən təşkilatlarda məsafədən işləməsi kadr potensialının bərabər

şəkildə səfərbər olunmasına imkan verir. Bu isə regionların sosial-iqtisadi inkişafında da mühüm rol oynaya bilər.

Hörmətli millət vəkilləri, eyni zamanda, distant iş modeli ətraf mühitə də müsbət təsir göstərir. Nəqliyyat yüklənməsinin azalması, enerjiyə qənaət və karbon emissiyasının azalması bu modelin əlavə üstünlüklərindəndir. Biz bu modelin hüquqi çərçivəsini yaradaraq işəgötürən və işçi arasında məsuliyyət bölgüsünü, təhlükəsizlik və əmək hüquqlarının təminatını da daha aydın şəkildə müəyyənləşdirmiş oluruq.

Əmək Məcəlləsində bu dəyişikliyin əks olunması həm də bir mesajdır. Azərbaycan dövləti dəyişən çağırışlara çevik cavab verir və əmək münasibətlərində insan yönümlü, ədalətli və müasir yanaşmaları təşviq edir.

Mən bu qanun layihəsini dəstəkləyirəm və həmkarlarımı da dəstəkləməyə çağırıram.

Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun.

Hörmətli həmkarlar, mən indi qanun layihəsini səsə qoyuram. Xahiş edirəm, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.02 dəq.) |
|---|---|
| Lehinə | 103 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, iclasımız başa çatdı. Mən hamıya təşəkkür edirəm. Növbəti iclasımız ayın 19-da olacaq.

Sağ olun.

# EDİLMƏMİŞ ÇIXIŞLARIN MƏTNLƏRİ

## ***16 dekabr 2025-ci il***

**Anar Məmmədov.** İstənilən normal cəmiyyətdə iqtidarda olan qüvvəyə müxalifətin olması, hakimiyyət uğrunda sivil, demokratik mübarizənin aparılması normaldır. Politoloji nəzəriyyələrə görə, demokratik cəmiyyətlərdə hakim qüvvəyə qarşı müxalif cərəyanın və fikrin olması, bütövlükdə, inkişafı şərtləndirən amillərdən biridir.

Yalnız ictimai-siyasi qüvvə kimi müxalifət sağlam və konstruktiv olduqda cəmiyyət tərəfindən qəbul olunur. Müxalif fikrin o zaman effekti olur ki, o, dağıdıcılıqdan və radikallıqdan uzaq olsun. Müxalifətçiliyə iddia edən qüvvələrin barışmazlığı cəmiyyətin, ölkənin inkişafını əngəllədiyindən, ölkəni xaosa, anarxiyaya sürüklədiyindən, xalq tərəfindən birmənalı olaraq rədd edilir. Cəmiyyətin inkişafı, ölkənin tərəqqisi üçün konkret pro
məramı olan, konstruktiv, sivil qaydalara uyğun
normaları ilə fəaliyyət göstərən müxalif qüvvəl
özünü tənzimləyir, ölkənin milli maraqları və mənafeləri naminə hər zaman rasionallıq nümayiş etdirirlər.

Bu gün Azərbaycanın müstəqil siyasəti, xalqın dövlətçilik iradəsi və milli həmrəyliyi elə bir səviyyədədir ki, hər hansı təxribat, sabotaj və ya daxili pozğunluq cəhdləri uğursuzluğa məhkumdur. Əminliklə demək olar, bugünkü dövlət idarəçiliyi, siyasi sabitlik və cəmiyyətin həmrəyliyi Azərbaycan dövləti üçün uzunmüddətli inkişafın, təhlükəsizliyin və tərəqqinin əsas təminatıdır.

Otuz ildən çox "demokrat" maskası taxaraq müxalifət-

çiliklə məşğul olan, konstruktivlikdən uzaq, dağıdıcı, inkarçı, pozucu mövqedə dayanaraq siyasi mübarizədə ən iyrənc vasitələrdən istifadə edən AXCP sədri Əli Kərimli, "Milli Şura"nın rəhbəri Cəmil Həsənli və onların dəstəsində olanlar məhz bu xüsusiyyətlərinə görə cəmiyyətimiz tərəfindən rədd edilirlər. Onların əsl siması Azərbaycan cəmiyyətinə məlumdur və cəmiyyət onları çoxdandır ki, tarixin zibilliyinə atıb. Cəmiyyətdən heç bir dəstək görməyən Əli Kərimli bütün ümidini indiyə qədər onu bəsləyən xarici anti-Azərbaycan qüvvələrə bağlayıb. Bu ümidlər də özünü doğrultmadığı üçün onun yeni hami axtarışları hər zaman davam edib.  Bu mənada özünün "xalq uğrunda mübarizə apardığını" iddia edən Əli Kərimlinin vaxtı ilə sərt tənqid etdiyi Ramiz Mehdiyev kimi bir şəxslə siyasi dil tapması onun ideoloji xəttinin nə qədər dəyişkən və situativ olduğunu bir daha göstərir.

Hər hansı siyasi qüvvənin avantürist məqsədlər üçün istifadə edilməsi ölkənin stabilliyinə ciddi zərbə vura bilər. Ona görə də bütün bunların kontekstində Ramiz Mehdiyev və Əli Kərimli arasında əlaqələrin araşdırılması, faktların obyektiv şəkildə qiymətləndirilməsi və dövlət təhlükəsizliyi üçün potensial risklərin aradan qaldırılması dövlətin üzərinə düşən əsas öhdəliklərdəndir.

**Bədəl Bədəlov.** Azərbaycan–Slovakiya münasibətləri son illər ərzində genişlənərək strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Prezident İlham Əliyevin dekabrın 8-də Bratislavaya rəsmi səfəri və mətbuata verdiyi bəyanat iki ölkə arasında formalaşmış siyasi etimadı, iqtisadi əməkdaşlığın dinamikasını və genişlənməkdə olan strateji istiqamətləri bir daha nümayiş etdirir. Səfər çərçivəsində vurğulanan əsas məqamlar münasibətlərin möhkəm təmələ söykəndiyini, əməkdaşlığın isə çoxşaxəli və praktiki nəti-

cələrə yönəldiyini sübut edir.

Slovakiya və Azərbaycan, sözün əsl mənasında, dost ölkələrdir. Ötən il imzalanmış Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə əlaqələrin inkişafında dönüş nöqtəsi kimi çıxış edərək münasibətləri ən yüksək səviyyəyə yüksəldib. Bundan sonra enerji, iqtisadiyyat, müdafiə sənayesi, nəqliyyat və texnologiyalar da daxil olmaqla, bütün sahələr üzrə intensiv əməkdaşlıq genişlənməyə başlayıb. Birgə işçi qruplarının fəallığı, müxtəlif layihələrin icrası və qarşılıqlı səfərlərin artması tərəfdaşlığın perspektivlərini daha da gücləndirir.

Enerji əməkdaşlığı Azərbaycan–Slovakiya münasibətlərinin əsasını təşkil edir. 2024-cü ildə ilk dəfə olaraq Azərbaycan qazı Slovakiyaya nəql olunub və ölkəmiz bu dost dövləti istənilən həcmdə enerji resursları ilə təmin etmək imkanına malikdir. Hazırda Azərbaycanın ümumi qaz ixracı 25 milyard kubmetr təşkil edir və bunun yarısı Avropa ölkələrinə çatdırılır. Azərbaycan qazını alan ölkələrin sayı 14-ə yüksəlib ki, bütün bunlar dövlətimizin Avropanın enerji təhlükəsizliyində mühüm rol oynadığını göstərir. Prezident İlham Əliyev mətbuata bəyanatında vurğulamışdır: “Biz boru kəmərləri ilə ixrac edilən qazın təchizatçı ölkəsi olaraq birinci yerdəyik. Yeni qaz yataqlarının işlənməsi nəticəsində əlavə resurslar əldə ediləcək və təbii ki, həm Slovakiyaya, həm də onun qonşularına Azərbaycan qazının təchizatı daha da böyük həcmdə mümkün olacaqdır”.

Prezident İlham Əliyev müdafiə sənayesi sahəsində əməkdaşlığın geniş potensiala malik olduğunu diqqətə çatdırıb. Slovakiyanın qabaqcıl texnologiyaları ilə Azərbaycanın maliyyə imkanlarının birləşdirilməsi sinergiya yaradaraq dünya bazarı üçün rəqabət qabiliyyətli məhsul-

ların istehsalı perspektivini yaradır. Səfər çərçivəsində xatırladılan faktlardan biri də Slovakiyanın Baş nazirinin müavini və müdafiə nazirinin noyabrın 8-də – Vətən müharibəsində əldə olunmuş qələbənin beşinci ildönümündə Bakıda keçirilən paradda iştirak etməsi olub. Bu amil Slovakiyanın yüksək səviyyədə siyasi dəstəyini nümayiş etdirərək əməkdaşlığın hərbi-siyasi müstəvidə möhkəmləndiyini təsdiqləyir. Dövlətimizin başçısı bəyanatında qeyd etdiyi kimi, müvafiq hökumət nümayəndələri bütün istiqamətlər üzrə təlimatları alıb ki, gələcək illərdə əməkdaşlığı daha da yüksək səviyyəyə qaldıraq.

Azərbaycanın nəqliyyat sektoruna yatırdığı investisiyalar ölkənin Şərq–Qərb və Şimal–Cənub marşrutlarının əsas həlqəsinə çevrilməsinə imkan verib. Orta Dəhliz layihəsi çərçivəsində Azərbaycan Avrasiyanın etibarlı nəqliyyat qovşağı kimi mühüm rol oynayır. Gələcək illərdə nəqliyyat infrastrukturuna əlavə sərmayə qoyulması planlaşdırılır ki, bu da Slovakiya ilə əməkdaşlıq üçün yeni imkanlar açacaqdır. Həmin sahə hər iki ölkə üçün strateji əhəmiyyət daşıyır və böyük potensiala malikdir.

Səfər zamanı informasiya texnologiyaları və data mərkəzlərinin yaradılması məsələləri də müzakirə olunub. Hazırda ölkəmizin istifadə olunmayan enerji gücü 2 giqavata bərabərdir və növbəti beş ildə sözügedən rəqəmin 8 giqavata çatdırılması planlaşdırılır. Mövcud potensial beynəlxalq data mərkəzləri üçün yüksək enerji təminatı imkanı yaradır. Həmçinin ölkədə iqlim müxtəlifliyi mövcuddur, soyuq bölgələrin olması data mərkəzlərinin səmərəli fəaliyyətinə töhfə verir. Azərbaycan sözügedən sahədə regional hab kimi çıxış etməyə hazırdır və Slovakiya şirkətləri ilə əməkdaşlığa xüsusi maraq göstərilir.

İki ölkə arasında indiyədək 13 rəsmi sənəd imzalanıb.

İqtisadi əməkdaşlıq haqqında Saziş əsasında Azərbaycan–Slovakiya Birgə İşçi Qrupu yaradılıb və bu qurum iqtisadi tərəfdaşlığın koordinasiyasını təmin edir. Birgə iqtisadi gündəm investisiyalar, ticarət, sənaye kooperasiyası, enerji, texnologiyalar və nəqliyyat sahələrində qarşılıqlı imkanların daha effektiv reallaşdırılmasına yönəlib.

Dövlətimizin başçısının bu səfəri Azərbaycan–Slovakiya münasibətlərinin hərtərəfli inkişafında yeni mərhələ yaradır. Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamənin praktik nəticələri getdikcə daha aydın görünür. Bütün bunlar bir daha təsdiqləyir ki, tərəflər uzunmüddətli və dayanıqlı əməkdaşlıq modelinə sadiqdirlər, qarşıdakı illərdə tərəfdaşlıq geniş miqyasda inkişaf edəcəkdir.

* * *

Son illər ərzində regionda və dünyada baş verən geosiyasi dəyişikliklər ölkələrin daxili siyasi sabitliyinə təsir göstərən amilləri aktuallaşdırıb. İnformasiya müharibələrinin, xarici təsir cəhdlərinin və radikal siyasi təşəbbüslərin artması fonunda dövlətlərin konstitusion quruluşunun qorunması, siyasi institutların möhkəmləndirilməsi və milli maraqların müdafiəsi müstəsna əhəmiyyət kəsb edir.

Müxtəlif dövrlərdə ölkəmizdə bəzi antimilli siyasi qruplaşmaların radikal mövqeləri müşahidə edilmişdir. Xüsusi ilə illər öncə Rusiyadakı anti-Azərbaycan dairələri tərəfindən dəstəklənən "Milli Şura" adlı qeyri-leqal təşkilat ölkəmizin konstitusion quruluşunu zorla dəyişdirərək hakimiyyəti ələ keçirməyi hədəf seçmişdi. Bu proseslərdə "Qafqaz baharı" xülyası ilə yaşayan AXCP sədri Əli Kərimli kimiləri xüsusi rol oynamışdı.

Faktlar təsdiqləyir ki, AXCP sədri məlum xarici qüvvələrə xidmət etməklə yanaşı, milli maraqlara xəyanət

yolunu tutmuş şəxslərlə, o cümlədən Ramiz Mehdiyevlə işbirliyində olmuşdur. Həmin vaxt Mehdiyev Kərimlidən davamlı mitinqlər keçirilməsini tələb etmiş, bu şəxslər gizli görüşlər keçirməklə, məxfi danışıqlar aparmaqla anti-konstitusion fəaliyyət həyata keçirmək yolunu tutmuşlar.

Bu kontekstdə "Milli Şura"da cəmləşmiş siyasi oyunbazların, eləcə də AXCP rəhbərliyinin antimilli mövqeyi, radikal ritorikanın artması, kəskin siyasi çağırışların səsləndirilməsi və kütləvi etiraz çağırışlarının intensivləşməsi cəmiyyətdə ciddi narahatlıq, eləcə də ikrah və hiddət yaratmışdı. Ekspertlərin fikrincə, Ramiz Mehdiyevin dəstəyi ilə Əli Kərimlinin təşkil etdiyi aksiya şouları, "siyasi nitq"lərində səsləndirdiyi təhlükəli fikirlər bilavasitə milli təhlükəsizliyə qarşı yönəlmişdi.

R.Mehdiyevin illeqal "dövlət şurası" ideyasının gerçəkləşməsi üçün Cəmil Həsənli, Gültəkin Hacıbəyli kimi xəyanətkar ünsürlər də canfəşanlıq etmişlər. Lakin bütün bu planlar tamamilə iflasa uğramış, "boz kardinal–Kərimli" ittifaqı öz qaranlıq məqsədlərinə nail ola bilməmişdir.

Regionda Rusiya–Ukrayna müharibəsinin gedişatı və mümkün nəticələri də bu məsələyə həssas yanaşma tələb edir. Müharibə bitdikdən sonra Cənubi Qafqazda geosiyasi vəziyyətə təsir etmək üçün anti-Azərbaycan dairələrin Ramiz Mehdiyevə bağlı olan qüvvələrlə əməkdaşlığa cəhd göstərə biləcəyi istisna olunmur. Bu kontekstdə AXCP və digər radikal qrupların aktivləşdirilmə ehtimalı da mövcuddur. Həmin səbəbdən milli maraqlar və dövlət təhlükəsizliyindən irəli gələn tələblər nəzərə alınmaqla, faktiki olaraq öz əməlləri ilə xalqa düşmən kəsilmiş bu partiyanın zərərli fəaliyyətinin zamanında qarşısının alınması mütləq zərurətdir.

Belə bir şəraitdə konstitusion quruluşun müdafiəsi,

siyasi sabitliyin qorunması və milli maraqların təmini prioritet məsələlərdəndir. Qanuni çərçivəni aşan, ictimai asayişi pozma potensialı daşıyan fəaliyyətlərə hüquqi qiymət verilməsi dövlətin və cəmiyyətin təhlükəsizliyi baxımından mühüm önəm kəsb edir. Geosiyasi dəyişikliklər fonunda daxili siyasi proseslərin doğru dəyərləndirilməsi, destruktiv meyillərə qarşı hüquqi mexanizmlərin tətbiqi və milli maraqların müdafiəsi dövlətin uzunmüddətli təhlükəsizliyinin təmini üçün son dərəcədə vacibdir.

**Ceyhun Məmmədov.** Bir neçə gün öncə Azərbaycan xalqı müstəqil dövlətimizin memarı və qurucusu Ümummilli Lider Heydər Əliyevin anım gününü qürurla qeyd etdi. Onun həyatı bütöv bir xalqın taleyi ilə qırılmaz tellərlə bağlıdır və onun irsi bu gün də dövlətçiliyimizin sarsılmaz təməli olaraq qalır.

Gənclik illərindən etibarən misilsiz intellekti və işgüzarlığı ilə seçilən Ümummilli Lider Heydər Əliyev qısa müddətdə böyük siyasi karyeraya sahib olaraq 1969-cu ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi oldu. Məhz həmin zamandan Azərbaycana rəhbərliyə gəlməsi ilə respublikanın inkişafında keyfiyyətcə yeni bir mərhələ başlandı. Onun sayəsində Azərbaycan Sovet İttifaqının ən inkişaf etmiş respublikalarından birinə çevrildi.

Heydər Əliyevin Sovet İttifaqı rəhbərliyində yüksək vəzifə tutması onun beynəlxalq nüfuzunun təsdiqi idi. Lakin o, həmişə ürəyində Azərbaycan sevgisini daşıyırdı. Onun 1990-cı ilin qanlı Yanvar hadisələrindən dərhal sonra Bakıya gəlməsi və xalqa dəstək olması onun vətəninə bağlılığının ən bariz nümunələrindən biri idi.

1993-cü ildə ölkənin çətin bir dövründə xalqın təkidli tələbi ilə onun hakimiyyətə qayıtması Azərbaycanın

müstəqilliyini xilas etdi. Vətəndaş müharibəsi təhlükəsi, iqtisadi böhran və beynəlxalq təcrid şəraitində Ümummilli Lider Heydər Əliyev gərgin zəhmət və qətiyyətlə sabitlik yaratdı və inkişaf yolunu müəyyənləşdirdi. Bu qayıdış tariximizə Milli Qurtuluş Günü kimi həkk olundu.

Heydər Əliyev tək siyasətçi deyil, həm də böyük azərbaycançılıq ideologiyasının yaradıcısıdır. Xalqın milli kimliyini gücləndirdi, vətənpərvərlik ruhunu yüksəltdi və fərqli siyasi baxışlara malik vətəndaşları vahid məqsəd ətrafında birləşdirdi. Bu məqsəd isə müstəqil və qüdrətli Azərbaycan idi.

Bu gün biz Ümummilli Lider Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin bu siyasəti uğurla davam etdirdiyini bir daha görürük.

44 günlük Vətən müharibəsində qazandığımız tarixi Zəfər, torpaqlarımızın işğaldan azad edilməsi və suverenliyimizin tam bərpası məhz Heydər Əliyevin təməlini qoyduğu güclü dövlətçilik siyasətinin nəticəsidir.

Ruhunuz şad olsun, Ulu Öndər! Sizin qurduğunuz qüdrətli dövlət və qoyduğunuz dəyərlər Azərbaycanı daha da güclü, müstəqil və inkişaf edən bir ölkə kimi dünyaya tanıtdı.

**Könül Nurullayeva.** Azərbaycan Respublikasında vətəndaşların əmək hüquqlarının qorunması, işçilərin maddi, sosial tələbatlarının ödənilməsi və layiqli həyat səviyyəsinin təmin edilməsi ölkədə həyata keçirilən sosial-iqtisadi siyasətin prioritetlərindəndir. Son illər dövlət tərəfindən işçilərin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində sistemli və məqsədyönlü tədbirlər həyata keçirilmişdir.

Bununla yanaşı, Azərbaycan iqtisadiyyatının rəqabət qabiliyyətli işçi qüvvəsi ilə təmin olunması, əmək ba-

zarında çevik siyasətin həyata keçirilməsini təmin edən institutlar vasitəsi ilə sosial dialoqun inkişafı və inklüziv məşğulluğun artmasına nail olunması, habelə əmək resurslarından səmərəli istifadə nəticəsində əmək məhsuldarlığı səviyyəsinin yüksəldilməsi əsas strateji hədəf və prioritetlər kimi müəyyən edilmişdir.

Qeyd olunan hədəflərə nail olmaq üçün ölkədə əmək ehtiyatlarının keyfiyyətcə yaxşılaşdırılması və iqtisadi fəallığın yüksəldilməsi, işaxtaran və işsiz şəxslərin sosial müdafiəsinin gücləndirilməsi, əmək bazarında tələb və təklif arasında dinamik uyğunluğun yaxşılaşdırılmasına yönəlmiş institusional mühitin təkmilləşdirilməsi istiqamətində tədbirlər davam etdirilir.

Azərbaycan Respublikasının Konstitusiyasının bir sıra maddələrində (məsələn, 35-ci maddə, Əmək hüququ, 37-ci maddə, İstirahət hüququ və sair) vətəndaşların baza əmək hüquqları müəyyən edildiyi üçün Azərbaycan Respublikasının Konstitusiyasının əmək qanunvericiliyi sisteminin tərkib hissəsi kimi qəbul edilməsi də vacib amillərdəndir.

Bu xüsusda ölkəmizdə iqtisadiyyatın rəqabətə davamlılığı artdıqca əmək münasibətlərinin də təkmilləşərək yeni iqtisadi mühitə və münasibətlərə uyğunlaşmasına, əmək normalarının beynəlxalq əmək normaları nəzərə alınmaqla, təkmilləşdirilməsinə, elektron sistemlərin tətbiqi ilə əlaqədar yeni qaydaların müəyyən edilməsinə, eləcə də ötən dövr ərzində əmək qanunvericiliyində aşkar edilmiş boşluqların aradan qaldırılmasına zərurət yaranır.

Fikrimcə, kəmiyyət baxımından əmək qanunvericiliyi sahəsində son illərin ən geniş spektrli dəyişiklikləri ehtiva edən bu qanun layihəsində nəzərdə tutulan yeni normalar mütərəqqi  müddəalarla zəngindir. Təbii ki, çıxışımı bizə ayrılmış reqlamentin tələblərinə uyğunlaşdırılması səbə-

bindən, konkret olaraq Əmək Məcəlləsinin yalnız 125-ci maddəsində təsbit olunması təklif edilən dəyişikliklərin mahiyyətinə və əhəmiyyətinə yönləndirmək istərdim.

Əmək Məcəlləsinin 125-ci maddəsi (3-cü və 4-cü hissələr əlavə olunur və 130-cu maddəsi (b bəndi çıxarılır) üzrə:

Azərbaycan Respublikasının 2010-cu il 11 may tarixli 1004-IIIQ nömrəli Qanunu ilə qoşulduğu "Beynəlxalq Əmək Təşkilatının "Analığın mühafizəsi haqqında" 1952-ci il Konvensiyasına (yenidən baxılmış) yenidən baxılması haqqında" 183 nömrəli Konvensiyasının 4-cü maddəsinin 5-ci bəndinə əsasən "Hamiləliyə və doğuşa görə məzuniyyətin doğuşaqədərki hissəsi doğuş gözlənilən vaxtdan uşağın faktiki doğulduğu tarixədək ötən günlər qədər uzadılır və bu halda doğuşdan sonrakı mütləq məzuniyyətin heç bir hissəsi azaldılmır".

Hesab edirik ki, bilavasitə konvensiyada nəzərdə tutulan bu norma hamiləliyə və doğuşa görə məzuniyyətin ümumi müddətinə təsir edir və konvensiyaya uyğunluğu təmin etmək məqsədi ilə bu normanın bilavasitə Əmək Məcəlləsində öz əksini tapması zəruridir. Bu məqsədlə Əmək Məcəlləsinin 125-ci maddəsinə yeni 3-cü hissənin əlavə edilməsi və əlavə olaraq uzadılan günlərin ödənişli olmasının nəzərə alınması obyektiv və humanist yanaşmanın göstəricisi kimi dəyərləndirilməlidir.

Eyni zamanda, gender bərabərliyinin təmin edilməsi məqsədi ilə bu maddəyə 4-cü hissənin əlavə edilməsi və bununla bağlı Əmək Məcəlləsinin 130-cu maddəsinin "b" bəndinin çıxarılması təklif olunur. Qeyd edək ki, gender bərabərliyi ilə bağlı əmək qanunvericiliyində son islahatlar nəticəsində Dünya Bankının Qadın, Biznes və Hüquq üzrə 2024-cü il nəşrindəki hesabat-reytinqdə Azərbaycan Respublikasının indeksi 78,8-dən təqribən 7 faiz artaraq 85-ə

yüksəlmişdir. Bununla yanaşı, sözügedən nəşrə əsasən "Validеynlik" indikatorunu yaxşılaşdırmaq üçün atalara ödənişli məzuniyyət verilməsi üzrə qanunvericiliyin nəzərdən keçirilməsi qeyd olunur. Təqdirəlayiq haldır ki, məhz bu məzuniyyət növünün məcəllədə təsbit olunması nəzərdə tutulur.

Bu baxımdan gender bərabərliyinin təmin edilməsi məqsədi ilə uşağın doğulması ilə əlaqədar kişilərə tibb müəssisəsinin arayışı əsasında doğuşdan əvvəl və doğuşdan sonra olan dövrdə cəmi 14 təqvim günü müddətində ödənişli məzuniyyət verilməsinin nəzərdə tutulması ilə bağlı 125-ci maddənin 4-cü hissəsində yeni normanın müəyyən edilməsi mühüm və müsbət dəyişiklik sayılmalıdır.

Bütövlükdə, qanun layihəsində nəzərdə tutulan dəyişikliklər mahiyyəti üzrə təkmilləşdirmə məqsədi daşıyır, habelə əmək münasibətlərində sosial yönümlü hüquqi tənzimləmələrin tətbiqini, müasir iş şəraitinə uyğun olaraq, yeni anlayışların qanunvericiliyə gətirilməsini təsbit edir.

Qanun layihəsinin birinci oxunuşda qəbul edilməsinə səs verəcəm.

# MÜNDƏRİCAT

16 dekabr 2025-ci il............................................................... 3

Edilməmiş çıxışların mətnləri............................................... 83

Yeddinci çağırış

AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİ İCLASLARININ

PROTOKOLLARI
VƏ
STENOQRAMLARI

Beşinci sessiya
Payız

53-cü cild

16 dekabr 2025-ci il

Buraxılışına məsul
***Hafiz Babayev***

Azərbaycan Respublikasi Milli Məclisinin mətbəəsi.
Bakı, Azad Mirzəyev küçəsi, 235.
Format 60x84 1/16. Çap vərəqi 5,0. Sifariş 50. Tiraj 150.